www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 may 2018-ci il Bazar ertəsi № 99 (6988) Qiymətı 60 qəpik

**Xəbər**

## Zorladığı iddia edilən qızlarla bağlı yeni təfərrüatlar

yazısı səh.4-də

**Gündəm**

### Şəhid ailələrinə ödəniləcək "qan pulu" ilə bağlı xoş xəbər



"Məsələ ilə əlaqədar proseslər uzağı 3 aya başa çatacaq..."

yazısı səh.4-də

### Şuşanın işğalının ildönümü ərəfəsində düşmənə lokal zərbə fürsəti - ekspert təklif edir ki...

yazısı səh.9-da

### Türkiyədəki seçkilər Azərbaycan siyasətçilərinin gözündə - simpatiya kimədir?

yazısı səh.3-də

### Dilimizdəki rus sözlərindən niyə qurtula bilmirik?

yazısı səh.5-də

### "Heç zaman bizim olmayan torpaqları tələb etməyə son qoymaq lazımdır" - erməni tarixçi

yazısı səh.11-də

### Bu gün Putin and içəcək - "Lavrovla yollar ayrıla bilər"

yazısı səh.12-də

### Sayt adları böyük, yoxsa kiçik hərflə yazılmalıdır?

yazısı səh.3-də

*İlahiyyatçı:*

### "Keçmişdən və gələcəkdən xəbər verən insanlar yalançıdır"

yazısı səh.14-də

### İlan, əqrəb sancmaları mövsümü gəldi - bunlara əməl eləmək həyatınızı xilas edə bilər

yazısı səh.13-də

### Məşhurları göyə qaldıran və... göydən endirən sitatları

yazısı səh.15-də

## Moskvanın erməni gedişi: kimə "mat" deyiləcək?

# ERMƏNİSTAN ÜÇÜN İNQİLAB TƏLƏSİ - ŞUŞANIN İŞĞAL GÜNÜNDƏ...

Sabah parlament axırıncı cəhddə ölkənin 1-ci şəxsini seçməlidir; mayın 8-i ermənilərə, Qarabağ klanına nə vəd edir? Politoloqlardan fərqli rəy və gözləntilər...



yazısı səh.8-də

## Gədəbəydə "Müsibəti-Fəxrəddin" dramı davam edir - yeni faktlar

İcra başçısı Ramiz Yediyarov blokadaya aldığı obyektdə Qarabağ qazisinin maşınını girov saxlayır...

yazısı səh.10-da



### Etibar Pirverdiyev dəvə fermasını kriptovalyuta fermasına dəyişib

yazısı səh.6-da



*Qüdrət Həsənquliyev:*

### "Zamanı gələndə onları ifşa edəcəyəm"

yazısı səh.7-də



*Vahid Əhmədov:*

### "Bakının icra başçısı olmaq istəyən çoxdur"

yazısı səh.5-də

**7 may 2018**



## Danışıqlar sıfırdan başlayacaq?

**"Ermənistanda istənilən konstruktiv hakimiyyətlə Azərbaycan danışıqlara getməyə hazırdır". Bu sözləri axar.az-a açıqlamasında politoloq Arzu Nağıyev deyib. O bildirib ki, formalaşan hakimiyyət həqiqətən Dağlıq Qarabağ məsələsinin həllinə çalışsa, bu istiqamətdə danışıqların aparılmasına Azərbaycan hazırdır.**

"Lakin əsas məqam ondan ibarətdir ki, biz danışıqlara sıfırdan başlamaq niyyətində deyilik. Danışıqların bütün nüansları məlumdur. Sankt-Peterburq protokolları, Kazan, Vyana görüşləri və BMT-nin qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi istiqamətində Azərbaycanın suverenliyini əldə tutaraq, danışıqlar davam etdirilə bilər. Hətta cənab prezident İlham Əliyev də dəfələrlə öz çıxışlarında deyib ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda ilk növbədə BMT-nin qətnamələri, ikinci ərazi bütövlüyü, üçüncü işğalçı ordunun ərazini tərk etməsi, qaçqınların öz yurd-yuvalarına qayıtması və təbii ki, Dağlıq Qarabağın statusu haqqında məsələlər əsas götürülməlidir. Əgər Ermənistanda yeni formalaşdırılacaq hakimiyyət bu şərtləri qəbul etsə, danışıqlara getməyə hazırıq. Əks halda, yeni sıfırdan danışıqlara başlamaq, yeni qərarlar qəbul etmək qeyri-mümkündür", - deyə o qeyd edib.

## Tramp İranda hakimiyyəti dəyişmək istəyir

**ABŞ prezidenti Donald Trampın vəkili, Nyu-York şəhərinin sabiq meri Rudolf Culiani Amerika liderinin İrandakı "rejimi dəyişmək" arzusunda olduğunu bildirib.**

Virtualaz.org xarici KİV-ə istinadən bildirir ki, bu barədə vəkil İslam Respublikasında demokratiyanın irəliləyişini dəstəkləyən təşkilatın qurultayında deyib. Nyu-Yorkun sabiq meri qeyd edib ki, İranda hakimiyyətin dəyişməsi "Yaxın Şərqdə sülhün bərqərar olmasına aparan yeganə yoldur".

"Bu hətta Fələstin-İsrail münaqişəsinin nizamlanmasından da vacibdir", - deyə Rudolf Culiani əlavə edib.

Xatırladaq ki, Donald Tramp yanvarda İranın iri şəhərlərindəki kütləvi etirazları şərh edərkən ABŞ-ın "vaxtı çatanda" İran xalqına dəstək verəcəyini bəyan etmişdi.



## Türkiyədən "S-400"lə bağlı ABŞ-a sərt xəbərdarlıq

**Türkiyə Vaşinqton Ankaraya "F-35" qırıcılarının tədarükünü əngəlləyəcəyi təqdirdə, ABŞ-a qarşı cavab tədbirləri görəcək. "Report" RİA "Novosti"yə istinadən xəbər verir ki, bunu "CNN Turk" telekanalına müsahibəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.**

Nazir bu həftə Birləşmiş Ştatlara səfər edəcəyini və bu məsələni orada müzakirə edəcəyini bildirib. Onun sözlərinə görə, "F-35"in satışının ləğvi məqbul deyil.

Aprelin ortalarında ABŞ dövlət katibinin köməkçisi Uess Mitçell bildirib ki, Ankaranın Rusiydan S-400 zenit-raket kompleksləri alması Türkiyəyə "F-35" qırıcılarının tədarükünə mənfi təsir göstərə bilər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Rusiyalı telejurnalist: "Biz olmasaydıq, bir erməni də olmazdı..."

**"Ermənistan tarixi, siyasi, fiziki və maddi cəhətdən Rusiya üçün yükdür". Trend-in məlumatına görə, bunu "Komsomolskaya Pravda" radiostansiyasının efirində tanınmış rusiyalı jurnalist və teleaparıcı, "Rosneft" şirkətinin vitse-prezidenti və mətbuat katibi Mixail Leontyev bildirib.**



M.Leontyev deyib: "Bu yük əvvəldən var. Əgər onlar ayrılmaq istəyirlərsə, onda gəlin hər şeyə son qoyaq. Onlar hazırda son bəyanatına kimi, - hansı ki, digər bəyanatlarının əksidir, - siyasi karyerasını ayrılmaq məsələsi üzərində quran adam üçün mitinq keçirirlər. Bu, onun siyasi nümayişlərinin əsas mənası idi. Əgər onlar ayrılmaq istəyirlərsə, onda buyursunlar və qardaş Azərbaycan xalqı ilə münasibətlərimizi korlamağa son qoysunlar".

Onun sözlərinə görə, Rusiya özü Ermənistanı satmayacaq: "Biz özümüz bunu heç vaxt etməyəcəyik. Çünki biz satqın deyilik. Siz bizdən başqa heç kimə lazım deyilsiz. Bizim dəstəyimiz və mövcudluğumuz hesabına mövcud olan millət bizi satqınlıqla şantaj etməyə hüququ yoxdur. Əgər kimsə balaca ağzını açıb belə bir şey söyləyəcəksə, onda o, bu faktı başa düşməlidir ki, onların belə haqqı yoxdur. Biz olmasaydıq, fiziki cəhətdən nə bir erməni olardı, nə də Ermənistan. Təbiətdə erməni olmazdı, ola bilməzdi".

## Azərbaycanda vərəm hallarının sayı azalıb

**Azərbaycanda 2010-cu ildə vərəmlə xəstələnmə göstəricisi hər 100 min nəfər əhaliyə 53 idisə, hazırda bu rəqəm 39-a enib. Musavat.com-un Trend-ə istinadən məlumatına görə, bunu Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun (ETAXİ) direktoru, professor Həqiqət Qədirova deyib.**

Onun sözlərinə görə, ölkədə ilkin aşkarlanmış vərəm hallarında da 21 faiz azalma müşahidə olunur. Vərəm əleyhinə müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi, vərəmin müayinə, diaqnostika, müalicə və profilaktikası üzrə müasir üsulların tətbiqi, xəstələrin dərman preparatları ilə təminatı və s. hesabına vərəmdən ölüm hadisələri da azalır. 2010-cu ilə müqayisədə vərəmin gecikmiş və yayılmış formalarının sayı da 2 dəfə azalıb.

H.Qədirova qeyd edib ki, ölkənin 3 bölgəsində - Gəncə, Quba və Zaqatalada institutun mikrobioloji laboratoriyaları işə salınıb. Mingəçevir, Xaçmaz, Sabirabad, Lənkəran, Şəki, Yevlax və s. rayonlarda da yeni laboratoriyaların təşkili planlaşdırılır.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının statistik məlumatına əsasən, dünyada il ərzində 9 milyondan artıq insan vərəm xəstəliyinə tutulur və 1,8 milyon insan həmin xəstəlikdən vəfat edir. Hesablamalara görə, vərəm dünya üzrə ən çox ölümə səbəb olan 10 xəstəlikdən biridir.



## "İnsan xərçəngə qalib gələcək" - azərbaycanlı həkim

**Məşhur "Genome Project"in aparıcı genetikləri iddia edir ki, 10 il sonra xərçəng hüceyrələrinə və radiasiyaya dözümlü insan hüceyrələri yaradılacaq. Bununla bağlı Sputnik.az-a açıqlama verən həkim, professor Adil Qeybulla deyib ki, alimlərin iddiaları elmi faktlara əsaslandığı üçün ciddi qəbul olunmalıdır.**

"Bizim gözümüzün qarşısında olan bəzi heyvanların dözümlülüyü artıq sübut olunub. Ümumiyyətlə, atmosferdə baş verən dəyişikliklərdən qorunmaq üçün heyvanların orqanizmində müdafiə reaksiyaları var. Bunları insana tətbiq etmək nəzəri cəhətdən mümkündür. Ehtimal var ki, gələcəkdə bunu praktik şəkildə həyata keçirmək mümkün olsun", - deyə o qeyd edib.

## X sinif şagirdləri üçün sınaq imtahanı keçirilib

**Dünən Dövlət İmtahan Mərkəzi (DİM) yeni təhsil proqramları (kurikulumlar) əsasında 10-cu sinif şagirdləri üçün 5-10-cu siniflər (10-cu sinif birinci yarımildək) üzrə məzmun standartlarının reallaşması səviyyəsinin yoxlanılması məqsədilə sınaq imtahanı keçirib.**

DİM-dən verilən xəbərə görə, imtahanlar Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz və Lənkəran şəhərlərində, ümumilikdə 24 binada təşkil olunub. İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 11827 şagird qeydiyyatdan keçib.

Şagirdlərə hər fənn üzrə 30 test tapşırığı təqdim olunub. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq formalıdır. Açıq formalı tapşırıqlardan 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan situasiya və yaxud mətn əsasında hazırlanan tapşırıqlardır. Digər açıq formalı tapşırıqlar uzun müddətdir istifadə olunan hesablama, seçim, xronologiya, uyğunluğu müəyyənetmə tipli tapşırıqlardır.

İmtahanların idarə edilməsi üçün 75 imtahan rəhbəri, 728 nəzarətçi-müəllim ayrılıb.

## Hava daha da istiləşəcək

**Azərbaycanda mayın 7-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz olacaq. Səhər bəzi yerlərdə zəif duman olacaq, şimal-qərb küləyi gündüz mülayim cənub küləyi ilə əvəz ediləcək. Havanın temperaturu gecə 14-17° isti, gündüz 25-30° isti təşkil edəcək.**

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13° isti, gündüz 25-30° isti təşkil edəcək.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında səhər və gündüz bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9° isti, gündüz 12-17° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17° isti, gündüz 25-30° isti təşkil edəcək. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17° isti, gündüz 22-27° isti, dağlarda gecə 4-9° isti, gündüz 13-18° isti təşkil edəcək. Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək, gecə və səhər bəzi yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18° isti, gündüz 27-32° isti təşkil edəcək. Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək, səhər dağlarda duman, çiskin olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-17° isti, gündüz 23-28° isti, dağlarda gecə 10-13° isti, gündüz 18-23° isti olacaq.

# Türkiyədəki seçkilər Azərbaycan siyasətçilərinin gözündə

## Siyasilərin simpatiyası ən çox hansı liderə və təşkilatadır?

**Türkiyədə iyunun 24-də keçiriləcək prezident və parlament seçkiləri ilə bağlı qızğın mübarizə gedir. Artıq prezidentliyə iddiaçılar, demək olar, məlumdur. H?akim partiya olan AKP və müxalif qurum MHP-nin yaratdığı "Cümhur" İttifaqı hazırkı prezident Rəcəb Tayyib Ərdoğanla seçkilərə gedir.**

Cümhuriyyət Xalq Partiyası Muharrem İncenin namizədliyini irəli sürüb. Son zamanlarda siyasətə atılan və adından söz etdirən Meral Akşener rəhbəri olduğu İyi Partiyanın namizədidir. Səadət Partiyasının lideri Təməl Karamollaoğlu da iddiaçılar sırasındadır.

Azərbaycanda da qardaş ölkədəki seçki prosesi diqqətlə izlənilir. Seçki kampaniyası dövründə xarici güclərin Türkiyə daxilində gərginlik, qarşıdurmalar yaradacaqları barədə ehtimallar gedən müzakirələrdə ön sıralardadır.

Azərbaycan siyasətçilərinin Türkiyədəki seçki mübarizəsi ilə bağlı mövqelərini aldıq.

Xalq Partiyasının sədri, sabiq baş nazir Pənah Hüseyn seçkiləri diqqətlə izlədiyini söylədi: "Türkiyədə gedən seçki prosesi hər hansı bir ölkədə yaşanan sıradan bir məsələ deyil. Azərbaycanın hər bir vətəndaşını bu yaxından maraqlandırır. Amma seçkilər Türkiyənin daxili məsələsi, hər bir türk insanının öncəliklə öz məsələsidir. Kim türk millətinin səsini alıb hakimiyyətə gələcəksə, ona indidən uğurlar arzulayaq. Etika xatirinə məlum namizədlərin hər hansı biri barədə nəsə söyləmək istəmirəm. Əlbəttə, bizim də rəğbət duyduğumuz şəxslər var. Əsas olan odur ki, Türkiyə və regionun təhlükəsizliyi üçün vacib olan siyasət davam etdirilir. Arzu edirik ki, heç bir gərginlik olmadan bu seçkiləri qanunauyğun şəkildə demokratik yolla başa vurmaq mümkün olacaq".

AĞ Partiya başqanı Tural Abbaslı da Türkiyədəki siyasi prosesləri çox yaxından izləyir: "Düşünürük ki, Türkiyədə baş verən siyasi proseslər Azərbaycana birbaşa təsir edir. Odur ki, bu mövzu hər zaman diqqətimizdədir. Hələ nəzərə alsaq ki, hazırda Türkiyədə baş tutacaq seçkilər ölkə tarixində prezidentlik üsul idarəsində ilk seçkilərdir, o zaman bu məsələnin nə qədər önəmli olduğu bir daha anlaşılır. Gözləntim odur ki, bu seçkilərdən sonra Türkiyə yeni idarə metodu sayəsində daha effektiv və çevik siyasət yürüdə biləcək. Bunun da nəticəsində istər regionda, istərsə də, dünyada yeni güclü siyasi oyunçu kimi mövqelər möhkəmlənəcək. Həmçinin belə bir güclü Türkiyənin Qarabağ probleminin həllində də oynayacağı rol artmış olacaq. Əminəm ki, bu prosesdən Türkiyəmiz daha güclü və qüdrətli çıxacaq və yeni dünya düzənində söz sahibi ölkələrdən birinə çevriləcək. İstər mənim şəxsən, istərsə də AĞ partiya olaraq bizim rəğbət və dəstəklədiyimiz namizəd AK partiya başqanı Rəcəb Tayyib Ərdoğandır. Bu rəğbət kortəbii olaraq formalaşmayıb. Qardaş dövlətin Ərdoğan hakimiyyətə qədər ki vəziyyətini və ondan sonrakı halını analiz edəndə dəstəyin əsaslı olduğunu hər kəs görər. Zatən Türkiyə müxalifəti də etiraf edir ki, bu seçkilərin birmənalı favoriti hazırkı cümhurbaşqanıdır. Nəzərə alsaq ki, Türkiyənin ən köklü partiyalarından olan MHP də bu seçkilərdə R.T.Ərdoğanı dəstəkləyir, o zaman bu əminliyimiz daha da artır. Əslində xarici qüvvələr və Türkiyənin söz sahibi olmasını istəməyənlər artıq uzun illərdir ki, bu qarışıqlıqları törətməyə çalışırlar. Buna misal kimi 17-25 dekabr böhranı, Gəzi parkı hadisələri və nəhayət 15 iyul hərbi çevriliş və s. cəhdləri göstərmək olar. Bu seçkilərin vaxtından əvvəl keçirilməsi də süni şəkildə yaradıla biləcək belə qarışıqlıqların qarşısını almaqdır. Bu gedişlə qardaş ölkəyə qarşı məkrli planlar içərisində olan bütün beynəlxalq güclər oyundan kənarda qaldılar və hazırlıqsız yaxalandılar. Odur ki, seçkilər ərəfəsində nəsə qeyri-adi hadisələrin ola biləcəyinə inanmıram".



VİP sədri Əli Əliyev hazırkı Türkiyə iqtidarının seçkilərdə yenidən qələbəsini arzulayır: "Seçki prosesini izləyirəm. Təbiidir ki, Türkiyədə hər olay, xüsusilə miqyaslısı bizi narahat etməlidir. Türkiyə bizim dayağımızdır. Tarixi seçkidir. Konstitusiya dəyişikliyindən sonra baş tutan ilk kampaniyadır. Həm prezidentin, həm də parlamentin seçilməsi yeni Ana Yasa qaydalarına uyğun keçiriləcək. Türkiyə ilə bağlı istəyim nədir? Mən Ərdoğanın timsalında güclənməkdə davamlı olan, dünyada söz sahibinə çevrilən, bölgə lideri kimi tanınan, İslam dünyasının ən sivil siyasi münasibətlərinə malik öncül müsəlman ölkəsi olmasında maraqlıyam. Ərdoğanın daxili gücü Türkiyənin bu istiqamətdə davamlı olaraq yürüməsinə səbəb olacağına əminəm. Seçkidə onun qələbəsini arzu edirəm. Lakin mənim fikrimcə, müxalifətin də güclü olması lazımdır. İstənilən hakimiyyətin yaxşı işləməsi, xalqdan asılılığını unutmaması, avtoritarizmə yuvarlanmaması üçün güclü, təsirli müxalifətin olmasına zərurət vardır. İstərdim ki, Ana müxalifət statusuna İyi Partiya yüksəlsin. Maral Akşenerin xarizmasını, siyasi potensialını daha uyğun görürəm. Ərdoğana dəngə faktoru kimi belə bir liderin meydana çıxmasına ehtiyac var. İndiki durumda Türkiyə siyasi meydanında olan alternativlər AKP liderinə xeyli uduzurlar. Bir sözlə, növbəti dönəmdə Ərdoğanın prezidentliyi ilə ciddi rəqabətli siyasi mühit arzu edirəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Sayt adları böyük, yoxsa kiçik hərflə yazılmalıdır?

**İnternet mediada sayt adlarının gah böyük, gah da kiçik hərflə yazıldığının şahidi oluruq. Bu zaman bir sual yaranır: Azərbaycan dilinin qrammatikasında qayda necədir: sayt adları böyük, yoxsa kiçik hərflə yazılmalıdır?**




Mövzu ilə əlaqədar filologiya elmləri doktoru, BDU-nun professoru Qulu Məhərrəmlinin fikrini öyrənirik. Q. Məhərrəmli musavat.com-a açıqlamasında sayt adının kiçik hərflə yazılmasının yanlış olduğunu dedi.

Onun sözlərinə görə, Azərbaycan dilinin qaydaların görə, saytın adı böyük hərflə yazılmalıdır: "Ümumi qrammatik qaydalara görə, sayt adları xüsusi isimdir. Ad bir saytı digərindən fərqləndirmək üçün qoyulur. Bəzən bir şəhərdə 10 parka eyni ad verirlər, bu, doğru deyil. Mütləq bir ad olmalıdır ki, o şəhərin, kəndin, parkın, saytın adını digərindən fərqləndirsin. Amma bizdə çoxları saytların adını kiçik hərflə yazırlar. Məsələn, "Yeni Müsavat" onlayn ictimai-siyasi qəzet yazacaqsa, mütləq böyük hərflə olmalıdır. Yox, söhbət domendən gedirsə, onda kiçik hərflə yazıla bilər. Məsələn, musavt.com".

❑ **LƏMAN**




# İƏT-dən Azərbaycana mühüm dəstək

## Təşkilat üzv ölkələrə çağırış elədi

**İƏT Xarici İşlər Nazirləri Şurası üzv dövlətləri Xocalı soyqırımını tanımağa, Azərbaycanın "Expo-2025"ə ev sahibliyini dəstəkləməyə çağırıb.**

Banqladeş Xalq Respublikasının Dəkkə şəhərində 5-6 may tarixlərində İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının 45-ci sessiyası keçirilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, sessiyada Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Sessiyada E.Məmmədyarov çıxış edərək bir sıra fundamental məsələlərə dair ölkəmizin mövqeyini iştirakçıların diqqətinə çatdırıb. Sessiyada qəbul olunmuş Dəkkə bəyanatının 18-ci bəndində İƏT üzv ölkələrində olan münaqişə və böhranların BMT və İƏT-in nizamnamələrində təsbit olunmuş beynəlxalq hüquq normaları əsasında həlli, onların doğurduğu neqativ və dağıdıcı təsirlərin aradan qaldırılması zərurəti qeyd olunaraq, bu xüsusda Azərbaycanla qəti həmrəylik bir daha ifadə olunur və münaqişənin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında həll edilməli olduğu vurğulanır.

Sessiyada ölkəmizlə bağlı bir sıra mühüm qətnamələr, o cümlədən Ermənistanın ölkəmizə qarşı təcavüzünə və işğal olunmuş ərazilərimizdə dini-mədəni irsin dağıdılmasına dair qətnamələr qəbul edilib.

"Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" adlı qətnamədə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsi tələb edilir və qətnamədə əks olunmuş tələblərin Ermənistan tərəfindən hələ də yerinə yetirilməməsinə dair narahatlıq ifadə olunur. Həmçinin, bütün dövlətlər Ermənistanın silah və hərbi təchizatlarla təmin edilməsinə və öz ərazilərindən bu kimi təchizatların ötürülməsi məqsədilə istifadə edilməsinə yol verməməyə çağırılır. Eyni zamanda, Azərbaycanın işğal edilmiş ərazilərindəki arxeoloji, mədəni və dini abidələrin dağıdılması, talan edilməsi və vandalizm aktları kəskin şəkildə pislənilir.

Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, həmçinin ATƏT-in sənədləri və qərarlarına uyğun olaraq, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməsi əsasında tez bir zamanda siyasi həllinin tapılmasına çağırış edilir. Sözügedən qətnamədə digər bir məqam üzv dövlətlərin BMT yanında daimi nümayəndələrinin BMT-nin Baş Assambleyasında səsvermə zamanı Azərbaycanın ərazi bütövlüyü məsələsinə tam dəstəyin verilməsi üzrə təlimatlandırma barəsində qərarın əks olunmasıdır. Qətnamədə həmçinin, Azərbaycan hökuməti və xalqı tərəfindən ölkənin müdafiəsi üçün edilən səylərə həmrəylik və tam dəstək ifadə olunur.

"1992-ci il Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı qətnamədə 1992-ci ilin fevral ayında Azərbaycanın Xocalı şəhərində və digər işğal edilmiş ərazilərində Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən azərbaycanlı mülki əhali və hərbi şəxslərə qarşı törədilmiş kütləvi vəhşiliklər qəti şəkildə pislənilir və üzv dövlətlər münaqişə dövründə Azərbaycanın Xocalı şəhəri və işğal edilmiş digər ərazilərində törədilmiş cinayətləri, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi yerli və beynəlxalq səviyyədə tanınması istiqamətində lazımı səy göstərməyə səslənilir.

Bundan əlavə, "Üzv ölkələr tərəfindən beynəlxalq təşkilatlara təqdim edilmiş namizədliklərə dair" qətnamədə ölkəmizin "Expo-2025"-ə ev sahibliyi etmək üçün namizədliyi və qeyri-maddi mədəni irsin qorunmasına dair Beynəlxlaq Hökumətlərarası Komitənin üzvlüyünə namizədliyinin dəstəklənməsinə çağırış edilib.

YENİ MÜSAVAT
N 99 (6988) 7 may 2018

**Bir müddət əvvəl Bakıda Ramil Talıbov adlı falçının tələbə qızları zorlaması ilə bağlı məlumatlar dərc etmişdik. Məsələ böyük qalmaqala səbəb olmuş, ictimaiyyətdə, mətbuatda və mediada geniş müzakirə edilmişdi.**

# Zorladığı iddia edilən qızlarla bağlı yeni təfərrüatlar

## Hədələnən təşkilat sədri **Mehriban Zeynalova:** "Əgər buna davam eləsələr, cinayət işi başladacam..."

Xatırladaq ki, mətbuatda məlumat dərc edildikdən sonra zorlandığını iddia edən tələbə qızlar və falçı Ramil Talıbov ATV-nin efirində üz-üzə gəlib. Qızlar zorlandıqları haqda ittihamlar səsləndirib, qarşı tərəf isə bu ittihamlarla razı olmadığını deyib. Qarşı tərəfin sözlərinə görə, qızlar ona böhtan atır. Canlı yayım zamanı qızlardan biri - Ə.A. falçını cəzalandırmaq üçün bu addımı atdığını deyib.

Qeyd edək ki, efir vasitəsi ilə Ə.A-nın falçı ilə birgə restoranda yeyib-içdikləri zaman çəkilən fotoları yayılıb. Bu da ayrıca olaraq müzakirə obyektinə çevrilib, olayla bağlı hələ də qaranlıq qalan detalların olduğunu sübut edib.

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə "Yeni Müsavat"a müraciət edərək bildirib ki, Ə.A. və onun anası, dayısı indi də onu şantaj etməyə başlayıb: "Zorlanma məsələsi ilə bağlı həmin iki tələbə qızı, ümumiyyətlə, tanımırdım. Yalnız sizin "Yeni Müsavat"ın əməkdaşları mənə zəng vurub bildirdilər ki, qızların yardıma ehtiyacı var (Xatırladaq ki, zorlanma ilə bağlı ilk yazı dərc edildiyi zaman "Yeni Müsavat"ın əməkdaşı olaraq, həm hüquq-mühafizə orqanlarına, həm də "Təmiz Dünya" təşkilatına məlumat vermişdik - X.G.). Bunun üçün mən təşkilatımızın psixoloq və hüquqşünasına göstəriş verdim. Sözün düzü, həmin qızlarla ünsiyyətdə olmadım. Hüquqşünas və psixoloq əməkdaşımızın gözləməsinə baxmayaraq qızlardan biri yalnız bir gün sonra təşkilatımıza müraciət edərək bildirdi ki, qaldığı evdən qovulub, əşyaları da həmin evdə qalıb, qalmağa yeri yoxdur. Həmin zaman da ona bildirdim ki, çalışmaq lazımdır ki, istintaq prosesində məsələlər ictimailəşməsin, oxuduğu universitetdə problemlər yaşamasın. Onda həmin qız iki gün bizim təşkilatımızda qaldı. Bu müddətdə sığınacaqdan səhər çıxıb, axşam geri dönürdü. Hətta ona bu haqda xəbərdarlıq etdik ki, sığınacaqda bu cür rejimlə qalmaq olmaz. Bir neçə gün sonra məni televiziya verilişinə dəvət etdilər. Dedilər ki, veriliş qızlarla bağlı olacaq. Bu zaman artıq qızın falçı deyilən şəxslə olan fotoları ictimailəşmişdi. Qız da həyəcanla bildirdi ki, onun izni olmadan şəkilləri yayılıb. Mən də anlatdım ki, ola bilsin qarşı tərəf özünü hər hansı formada müdafiə etmək üçün şəkilləri efirə təqdim edib. Qeyd etdim ki, buna görə Daxili İşlər Nazirliyinə, o cümlədən 102 qaynar xidmətinə müraciət edə bilər. Verilişə çıxdığı zaman fasilədə qızlardan biri bildirdi ki, hətta üzü bağlı deyil, tam açıq şəkildə efirə çıxmaq istəyir. Mən isə bildirdim ki, buna tələsmək olmaz. Qızların verilişə necə, kimin vasitəsi ilə getməsindən xəbərsizəm. İndi isə qızın valideynləri, dayısı mənə zəng edib şantaj edirlər ki, guya mən qızlardan tələb etmişəm ki, bu məsələ ictimailəşsin. Halbuki, mən gələnə qədər məsələ artıq tamamilə ictimailəşmişdi, efirlərdə onların video görüntüləri yayımlanmışdı".


Mehriban Zeynalova

Mehriban Zeynalova zorlanma olayının çox qarışıq məsələ olduğunu diqqətə çatdırdı: "Ümumiyyətlə, sonuncu açıqlamamda da qeyd etmişdim ki, psixoloqumuz qızlar haqqında rəy verməyənə qədər mən bu məsələ haqqında dəqiq cavab verə bilmərəm. Əgər psixoloq doğrudan da rəy versə ki, qızlar travma alıb, onlar bu cür hadisəni yaşayıblar, mən nəsə deyə bilərdim. Lakin qeyd edim ki, Ə.A. bizim sığınacaqda qalarkən sakinlərlə xoş əhval-ruhiyyədə olurdu, deyib-gülürdü, onda travma almış görüntü yox idi".

Təşkilat rəhbəri qeyd edib ki, qızların hadisə baş verən zamanı deyil, yalnız iki aydan sonra hüquq-mühafizə orqanlarına müraciət etməsi də anlaşılan deyil: "Əgər zorlanma haqqında həmən məlumat verilərdisə, məsələ anındaca sübuta yetirilə bilərdi. Lakin hadisənin üstündən 2 ay keçib, üstəlik başqa iddialar ortaya çıxıb. Məsələni müzakirə edən şəxslərdə belə bir sual ortaya çıxır, "əgər bu qızlarda bu cür efirə, mətbuata çıxmaq kimi cəsarət var idisə, həmin hadisə baş verəndə niyə hüquq-mühafizə orqanlarına müraicət etməyiblər?" Əgər zorlanmışdılarsa, bu cür cəsarətlə dərhal müraciət edə bilərdilər. Şantaj yolu ilə kimisə həbsxanaya saldırmaq olmaz. Bu cür metod yanlışdır. Qeyd edim ki, əgər qızlar və valideynləri mənim nüfuzuma zərər yetirmək və ya böhtanlarına davam edərləsə, bu haqda cinayət işi başladacam".

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini öyrənməyə çalışdıq. Lakin telefon zənglərimiz cavabsız qaldı.

Xatırladaq ki, aprelin 18-də iki tələbə qız redaksiyamıza müraciət edərək bildirmişdilər ki, özünü Seyid Mirseymur kimi təqdim edən Ramil Talıbov "İnstagram" vasitəsi ilə tanış olduğu qızları fala baxmaq adı ilə aldadaraq, onlarla intim əlaqədə olub. Adlarını açıqlamadığımız gənc qızların iddialarında o da yer alır ki, "falçı Mirseymur"un əməllərinin qurbanı olan gənc qızların sayı 40-dan çoxdur. Bu mövzu ictimailəşdirildikdən sonra hüquq-mühafizə orqanları operativ araşdırmaya başlayıb. Ramil Talıbov məsələ ilə bağlı Yasamal RPİ-nin 29-cu Polis Bölməsi tərəfindən saxlanılmış, bir gün sonra isə sərbəst buraxılmışdı.

❑ **Xalidə Gəray,**
**"Yeni Müsavat"**

# Şəhid ailələrinə ödəniləcək "qan pulu" ilə bağlı xoş xəbər

## "Məsələ ilə bağlı bütün proseslər uzağı, 3 aya başa çatacaq..."

**Aprelin 19-da prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.**

Fərmanda bildirilir ki, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilir.

Fərmanda qeyd olunub ki, birdəfəlik ödəmə bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş ümumi siyahıdakı hərbi qulluqçuların Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müəyyən edilən vərəsələrinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir.

Artıq fərmanın verilməsindən 2 həftədən çox vaxt keçib. Bəs şəhid ailələri pulları nı ala biliblərmi?



Əvvəla onu qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumata görə, fərmanın icrası ilə əlaqədar nazirlikdə komissiya yaradılıb. Komissiya aprelin 30-da ilk iclasını da keçirib. Komissiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, sosial müdafiə əhəmiyyətli bu mühüm fərmanın yüksək səviyyədə icrası, xüsusilə də qeyd edilən birdəfəlik ödəmənin verilməsi prosesinin tam şəffaf, ümumən vətəndaş məmnunluğuna səbəb olacaq şəkildə həyata keçirilməsi bu gün qarşımızda duran əsas vəzifələrdəndir: "Nazirliyin əmri ilə yaradılan komissiya tərəfindən bu istiqamətdə tədbirlərin təşkili və həyata keçirilməsi təmin olunacaq. Komissiya birdəfəlik ödəmələrin şəffaf şəkildə verilməsinin təşkili mexanizmini bir ay müddətində müəyyən edəcək".

Nazir qeyd edib ki, fərmanda nəzərdə tutulan şəxslərin ümumi siyahısının hazırlanması üçün aidiyyəti qurumlara müraciətin göndərilməsi ilə bağlı komissiya tərəfindən konkret müddətlər müəyyən edilib: "Eyni zamanda, birdəfəlik ödəmənin verilməsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sisteminin "Sosial ödənişlər" alt-sistemində "Birdəfəlik ödəmələr" bölməsi və müraciətlərin vahid elektron reyestri yaradılacaq. Hərbi qulluqçunun ad və soyadını, atasının adını daxil etməklə müvafiq siyahıda olub-olmamasını müəyyən etməyə imkan verən internet informasiya resursunun fəaliyyəti də təmin ediləcək".

Bəs məsələ ilə bağlı şəhid ailələri nə deyirlər? "Yeni Müsavat"a danışan Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı bildirdi ki, hazırda sənədlərin hazırlanma prosesi gedir: "Sənədlər Sosial Müdafiə Fondunun rayon şöbələrinə təqdim olunur. Hələ ki, həm Müdafiə Nazirliyi, həm də Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidməti tərəfindən qeyd olunan tarixlər arasında şəhid olanların siyahısı hazırlanmalıdır. Siyahı hazır olduqdan sonra bu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilməlidir. Bütün bu mərhələlərdən sonra pulların verilməsinə başlanılacaq. Ümumilikdə isə qeyd etdiyimiz proseslər 3 ay müddətə başa gələcək. 3 aydan sonra yəqin ki, ailələrə həmin vəsaitlər təqdim ediləcək. Şəhid ailələrinin ümumi sayını bilməsəm də, məndəki məlumata görə, 198 şəhid Milli Qəhrəman ailəsindən təxminən 150 nəfəri bu günə qədər həmin vəsaiti ala bilməyib. Bu işi çox müsbət dəyərləndirirəm. Çünki o pullar ailələrə verilməli idi və onların haqqıdır. Cənab prezident tərəfindən bu cür fərmanın verilməsi isə o pulları mənimsəmək istəyən insanların da qarşısını alacaq. Çünki artıq fərmandan sonra həmin vəsaitlər birbaşa olaraq ailələrin bank hesabına köçürüləcək. Adına pul köçürülən ailələr də asanlıqla pulu hesabından çəkə biləcək. Daha arada vasitəçi insanlar olmayacaq. Bu isə xoşagəlməz halların qarşısının alınması üçün ideal variantdır. Ona görə də fərmanı çox yüksək qiymətləndirirəm".

E. Uluxanlı bildirib ki, ailələr də vəziyyətdən razıdırlar: "Ailələr də öz razılıqlarını bildirirlər. 5 il öncə şəhid ailələri bizə müraciət edib, el arasında "qan pulu" deyilən bu vəsaiti ala bilmədiklərini qeyd etmişdilər. Biz də müvafiq idarələrə müraciət etmişdik. Ancaq həmin idarələr bizə rədd cavabı vermişdilər. Bu fərmandan sonra isə artıq ailələr hər biri bizə müraciət edərək, hansı sənədləri toplamalı olduqlarını öyrənirlər. Biz də onlara lazımı qaydada yardımlar edirik. Şəhid ailələri sənədlərini toplayıb, Sosial Müdafiə Fondunun yerli şöbələrinə təqdim edirlər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (6988) 7 may 2018

# “Bakının icra başçısı olmaq istəyən çoxdur”

## Vahid Əhmədov: “Manat bu səviyyədə qorunub saxlanılacaq”

**Xəbər verildiyi kimi, Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədov bir müddət öncə ürəyindən əməliyyat olunub. Ağır əməliyyatdan sonra deputat mətbuatda da az görünməkdədir. V.Əhmədovla səhhəti, prezident seçkilərindən sonra ölkə daxilində baş verən son proseslərlə bağlı söhbət etdik.**



***- Vahid bəy, hazırda özünüzü necə hiss edirsiniz?***

- Özümü yaxşı hiss edirəm. Normal şəkildə işə gedib-gəlirəm. Heç bir problem yoxdur.

***- Ölkədə gedən prosesləri izləyirsiniz?***

- Həm xaricdə, həm də Azərbaycanda gedən proseslərin hamısını izləyirəm.

***- Yarım ay öncə təsdiq edilən yeni hökumət barədə nə deyə bilərsiniz?***

- Hazırda islahatlar gedir. Bu islahatların davamlı olacağı görünür. Cənab prezident seçkilərdə qalib gələndən sonra hökuməti buraxdı və yeni hökumət formalaşdırmağa başladı. Bu hökumətdə də gənc kadrlara daha çox üstünlük verilir. İndi onların bu etimadı doğruldub-doğrultmayacağını zaman göstərəcək. Amma onların əksəriyyətini tanıyıram, savadlı kadrlardır. Yəqin ki, öz üzərlərində işləsələr, hökuməti yüksək səviyyədə təmsil etmək imkanları var. Həmçinin, yeni hökumətdə köhnə kadrlardan qalanlar var - Nazirlər Kabineti və onun müavinləri səviyyəsində. Onlar da öz təcrübələrindən istifadə edib, töhfələrini verməlidirlər. Hökumətdə gəncləşmə getməlidir, bu olduqca vacibdir. Çünki uzun müddət idi ki, hökumətdə uzun zamandan qalan məmurlar var idi. Əhali bunlara öyrəşmişdi. Amma indi iqtisadi islahatlar da gedir. Aparılan islahatlarda yeni kadrlara üstünlük verilməyə başlayıb. Bunu bir sıra nazirliklərdə gördük. Əsas olan odur ki, cənab prezidentin etimadını doğrultsunlar, Azərbaycan iqtisadiyyatının inkişafına müsbət təsirlərini göstərsinlər.

***- İslahatlar bununla bitəcəkmi?***

- Bu islahatları davam etdirmək həddindən artıq vacibdir. Bir sıra struktur islahatları həyata keçirilməlidir. Kadr islahatları hələ də bitməyib. Müəyyən problemlər ola bilər. Bəzi qurumlarda birləşmələr, ayrılmalar olacaq. Həyat davam edir, tələbat günü-gündən artır, Azərbaycanın beynəlxalq aləmdə imici günü-gündən yüksəlir. Müəyyən sahələrdə iqtisadi inkişaf nəzərə çarpır. Bunu çoxsaylı etmək üçün islahatlara ehtiyac var.

***- Bu təyinatların içərisində ən çox müzakirə edilən baş nazir təyinatı oldu...***

- Bu seçim prezidentindir. Açığı deyək ki, baş nazir postuna göz dikənlər həddən artıq çox idi. Çox adamların adları hallanırdı. Baş nazir postu son zamanlar bəzi ölkələrdə daha çox siyasi lider kimi qəbul olunur. İqtisadi məsələlərə onun müavinləri baxır. Novruz Məmmədov kifayət qədər təcrübəli şəxsdir. Uzun müddət beynəlxalq əlaqələrlə məşğul olub, cənab prezidentin köməkçisidir. Mənə elə gəlir ki, Dağlıq Qarabağ məsələsində, eləcə də, Azərbaycanın beynəlxalq aləmlə əlaqələrində Novruz Məmmədovun müsbət rolu olacaq.

## “Gənc kadrların etimadı doğruldub-doğrultmayacağını zaman göstərəcək”

***- Bakı Şəhər İcra Hakimiyyətinin başçısı postu hələ də boş qalır. Bu da bəzi söz-söhbətlərə yol açıb...***

- Bakı Şəhər İcra Hakimiyyəti boşdur, ya doludur, bilinmir. İşlər öz axarında gedir. Hacıbala Abutalıbov baş nazirin müavini təyin olunub. Yəqin ki, götür-qoy edirlər. Bakının icra başçısı olmaq istəyənlər çoxdur. Cənab prezident öz seçimini edəcək və qərarını verəcək.

***- 11 aprel seçkilərindən sonra əsas müzakirə mövzularından biri də parlamentin buraxılacağı yönündədir. Sizcə, yaxın zamanlarda növbədənkənar qanunverici orqana seçkilər keçirilə bilərmi?***

- Bu barədə bir söz deyə bilmərəm. Çünki bu səlahiyyət cənab prezidentə aiddir. Amma deyim ki, parlamentin buraxılmasına elə bir ehtiyac da yoxdur. Çünki Milli Məclis normal şəkildə fəaliyyət göstərir. Parlamentin səlahiyyətləri də o qədər geniş deyil. Səlahiyyətləri çərçivəsində Milli Məclis fəaliyyət göstərir. Bu baxımdan parlamentin buraxılıb növbədənkənar seçkilərə gedilməsinə ehtiyac yoxdur.

***- 6 deputat yeri boşdur...***

- Bu dairələr üzrə seçkilər keçirilə bilər. 6 deputat yeri üçün mütləq seçkilər olmalıdır. Çünki uzun müddət bu yerlər boş qala bilməz. Mərkəzi Seçki Komissiyası həmin yerlərə seçkilərə müəyyən etməlidir.

***- Deputatlarla bağlı son günlərdə onların maaşlarının 10% artırılması ciddi gündəm olub. Tənqidlər daha çox səslənir. İradlarda əsaslar varmı?***

- Dövlət büdcəsindən maliyyələşən qurumlarda maaşlar bu səviyyədə qaldırıldı. Bu, o qədər böyük artım deyil. Belə bir qərar qəbul etdilər, parlament də təsdiqlədi. Ümumi götürəndə burada təkcə Milli Məclisdən söhbət getmir. Büdcə təşkilatlarında çalışanların maaşları artırılmalıdır. May ayında ola bilər ki, dövlət büdcəsinə yenidən baxılsın. Bunlara baxılan zaman həkimlərin, müəllimlərin də digər sahələrdə çalışanların maaşlarına baxılmasına böyük ehtiyac var. Mütəmadi olaraq cənab prezident bu məsələlərə baxır, müəyyən qədər maaşları artırır. İndi imkanlar, gəlirlər var, neftin qiyməti yüksəkdir. Ona görə də maaşlara baxmaq olar.

***- Qarşıdakı zamanda ölkə iqtisadiyyatını nələr gözləyir?***

- Azərbaycan iqtisadiyyatını ciddi problemlər gözləmir. Hesab edirəm ki, manat bu səviyyədə qorunub saxlanılacaq. Çünki manatın arxasında dayanan neftin qiyməti çox yüksəkdir. Neftin qiyməti 70-75 dollar olduğu sürəcdə ciddi problemlər gözlənilmir. 2018-ci ildə həm iqtisadi islahatları həyata keçirmək, həm də prezidentin 2016-cı ildə qəbul etdiyi Strateji “Yol Xəritəsi”ndəki planları həyata keçirmək üçün manatın məzənnəsi bu səviyyədə qorunacaq. Manatla bağlı ciddi problemlər gözlənilmir. Kənd təsərrüfatına diqqəti artırmaq lazımdır. Bu, bizim üçün əlavə gəlir gətirən sahədir. Turizmə diqqəti artırmaq vacibdir. Bu sahədə keyfiyyəti müəyyən qədər qaldırmaq lazımdır. Çünki Azərbaycana axın çoxalıb. Bu sahədən gələn gəlirlərlə bağlı elə etmək lazımdır ki, dövlət büdcəsində yeri olsun.

***- Kənd Təsərrüfatı demişkən, bu nazirliyə yeni təyinat oldu. “ASAN Xidmət”də uğur qazanan İnam Kərimov nazir oldu...***

- Köhnə nazirlə də təmasda olmuşam. Deyə bilmərəm ki, o şəxs pis işləyirdi. Çünki onun dövründə çox işlər görüldü. Hətta 30-35% ixrac artdı. İndiki nazir gəncdir. Kənd təsərrüfatı əlaqəsinin nə dərəcədə olduğunu deyə bilmərəm. Amma savadlı şəxsdir. Ola bilsin ki, bu sahədə də müəyyən uğur qazansın.

**❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”**

# Dilimizdəki rus sözlərindən niyə qurtula bilmirik?

## Sabir Rüstəmxanlı: “Həm dilimizə, həm də həyatımızın müxtəlif tərəflərinə təzyiqlər var...”

**Bir çox rus sözləri var ki, hələ də onlardan dilimizdə geniş şəkildə istifadə olunur. Zaman-zaman bu məsələ gündəmə gəlsə də, bunun qarşısını almaq mümkün deyil. Özü də maraqlıdır ki, müstəqillik illərində anadan olan gənc nəslin dillərində də bu sözlər yer alıb.**



Pol, rozetka, vapşe, semiçka, xolodilnik, ostanovka, potolok, duxovka, otkaz, zapçast, molodes, uje, morojna, krışa, zakaz, srazu, prosto, panika kimi onlarla misal çəkə bilərik ki, dilimizdə ən çox istifadə edilən rus sözləridir. Mütəxəssislər rus dilinin Azərbaycana hələ də təsirlərinin qalmasında bir sıra səbəblər göstərirlər. Valideynlərin belə sözlərdən istifadə etməsinin keçici hal yaratdığı və onların övladlarının orta təhsillərini rusdilli məktəblərdə almalarına daha çox üstünlük verdikləri bildirilir.

Azərbaycan dilində təhsil verilən məktəblərdə bu məsələyə diqqətin ayrılmamasının da mövcud durumun yaranmasında başlıca rol oynadığı önə çəkilir. Bu tendensiyasının davamlı olmasının arzuolunmaz durum yaratdığı qeyd edilir. Bunların qarşısını almaq üçün bəzi yollar da göstərilir.

VHP sədri, Xalq şairi Sabir Rüstəmxanlı bir sıra səbəblər göstərdi: “Dilimizin təmizlənməməsi, surət sonluqlarının köhnə qaydada qalması, rus və digər xarici dillərə meylin olması və bunun azalmaq əvəzinə artması təkcə valideynin, məktəbin günahı deyil. Bu bütövlükdə cəmiyyətin günahıdır. Aşağıdan tutmuş ən yüksək yerlərə qədər dövlət qurumları, yetkililəri daxil, hamı günahkardır. Müəyyən boşluqlar var ki, bu problemlər aradan qalxmır. Bu günləri rus məktəblərinə meylin artmasında, belə məktəblərin sayının çoxalmasında çox şeylər görürük. Hətta mənə dəfələrlə deyiblər ki, uşaqları Azərbaycan məktəblərinə yazmaq istəyirik, lakin valideynlər rus dilli məktəbləri istəyirlər. Vəzifə sahibləri var ki, adlarını demirəm, onların dillələrindən rus dilinin əsas dil olduğunu eşitmişik, hətta gələcəkdə Rusiya ilə yenidən bir olmaq, onlara qoşulmaq fikirlərinin şahidi olmuşuq. Bu səviyyədə düşünənlər cəmiyyətdə hələ də varsa, demək, problemlər olduqca dərindir. Bir kənddə yaşayan sıravi vətəndaş bunları deməz. Görünür, həmin vəzifə sahibləri bir-biriləri ilə danışırlar, məsləhətləşirlər. Bu söz-söhbətlər hansısa gizli bir siyasətimizin uzantısıdır. Ortada dilimizə sovet dövründən az təsirlərinin olmadığı faktı var. Müstəqilik, amma müstəqil olmayan məmurlarımız, insanlarımız var. Müstəqillik ev kimi şüşədə idi, biz onu şüşədən çıxardıq, indi başımızın üstündə durub, bizi boğmağa çalışır. Hər şey göz qabağındadır. Həm dilimizə, həm də həyatımızın müxtəlif tərəflərinə təzyiqlər var. Mədəniyyətimizin müxtəlif sahələrinə də təsirlər az deyil. Bunlar həyatımızın gizli məqamlarının ifadəsidir. Bu, bir ölkə üçün arzuolunmaz tendensiyadır.

Sovet dövründə ən ciddi mədəniyyət hadisələri, dil, orfoqrafiya məsələləri müzakirə olunub, amma protokol rusca tutulub. İndi buna sevinməliyik ki, dövlət səviyyəsində yüksək mərtəbələrdə yazışmalar, beynəlxalq ünsiyyət ana dilimizdədir. Amma bunlara baxmayaraq, gizlində rus dilinin təbliğatını aparan insanlar var. Hətta rus dilli məktəblərin sayının artırılmasını dilə gətirənlər də var. Bunlar sonunda Azərbaycanda milli problemlərimizin həllinə mane olan yerlərə aparıb çıxarır. Rus dilini öyrənsinlər, heç kim buna qarşı deyil. Çünki Rusiya qonşumuzdur, bu dil mükəmməl öyrədilməlidir. Amma Azərbaycan uşaqlarının birinci sinifdən 11-di sinfə qədər rus dilində oxuması doğru deyil. Çünki həmin rus məktəblərində təəssüflər olsun ki, proqramlar Azərbaycan mədəniyyətini, dilini sevməyə imkan vermir. Rus mədəniyyətinə, tarixinə sevgi aşılanır. Ona görə də bunlar gələcəkdə böyük problemlər yarada bilər. Mən təhlükələri deyirəm. İctimaiyyət bundan nəticələr çıxarmalıdır".

Xalq şairi onu da bildirdi ki, uşaq baxçasından başlayaraq hər kəs öz dilinə hörmət etməlidir: “Anlayıram ki, Azərbaycanda azsaylı xalqlar var. Onlar ənənəvi olaraq, övladlarını daha çox rus dilli məktəblərə qoyurlar. Halbuki, onlar da Azərbaycan vətəndaşıdırlar. Öz ana dilində məktəb açırsa açsın, yox əgər buna imkanı yoxdursa, ilk növbədə dövlət dilində təhsil almalıdır. Öncəliklə dövlətin dili qorunmalıdır. Qonşu dövlətin dilinə bu hörmət haradan gəlir? Bu hansı qanunda yazılıb? Rus övladları var ki, getsinlər öz məktəblərində təhsil alsınlar, onlara hər cür şərait yaradaq. Amma öz övladlarımızı kütləvi şəkildə nə üçün kənar bir dövlətin dilində oxutmalıyıq?..”

**❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 99 (6988) 7 may 2018



# Ona "baba" əvəzinə "hayrik" deyəcəklər

Samir SARI

**Uzun illər öncə, daha dəqiqi, 1994-95-ci illərdə Yasamalda, Texniki Universitetin yataqxanasında qalırdım, qonşum zəngilanlı köçkün idi, 3-4 yaşlı oğlu vardı, daima övladının boyunu sevirdi, onunla bağlı optimist, zarafatyana planlar qururdu.**

O zaman da elə vaxtlar idi ki, çeçenlərin səs-sorağı, döyüşkənliyi barədə söhbətlər dünyanı başına götürmüşdü, Şamil Basayev Budyonovskda əməliyyat keçirib, Kremlin dizini yerə gətirmişdi. Hamı "çeçen-çeçen" deyə-deyə az qala çeçəyirdi. Elə günlərin birində qonşumla həyətdə rastlaşdıq, sözünə "çeçenləri görürsən də" deyə başladı, sonra bir az irəlidə oynayan balaca oğlunu göstərib dedi: "Gözümü dikmişəm buna... Yekəlsin, gedib buna bir çeçen qızı alacam. Qoy heç olmasa nəvəm qeyrətli olsun, torpağımızı geri alsın".

Zarafatla deyilmiş bu sözün altında, əslində, böyük bir faciə dururdu. Belə çıxırdı ki, biz əzilmiş, döyülmüş, uduzmuş və bununla barışmış durumdayıq, indi əlacımız yalnız "qeyrətli nəvələr"ə ümid bəsləməyə çatır.

Ancaq bu, sadəcə, həmin gün gündəmdə olan hadisələrin təsiri altında dilə gətirilmiş və məzəli tonda ifadə edilmiş fikir idi. Sözün başına ip salmağa dəyməzdi.

Sonralar bu cür ifadələri çox eşitdim. "Oğluma nemes qızı alacam, qoy balaları dürüst, dəqiq olsunlar"; "oğluma yevrey qızı alacam, nəslimizdən məşhur və varlı-hallı adamlar çıxsın"; "oğluma braziliyalı qız alacam, bəlkə nəvələrim yaxşı futbol oynaya, milli komandamız da qələbə qazana" və s.

Bunlar da, söz yox ki, zarafat idi. Elə deyənlərdən heç biri gedib oğluna "nemes", "yevrey", "braziliyalı" qızlar almadılar, necə deyərlər, "kəndini ürküt, axsağından yapış" taktikası seçdilər.

Düzü, iki il əvvəl İslandiyanın futbol millisi Avropa çempionatında qan eləyəndə mən də yeniyetmə varislə elə bir zarafat elədim. Oyun başlamazdan öncə stadionda əyləşən gözəl island qızları göstərirdilər, zarafatla dedim, qaqa, bax, gör, necə gözəl qızlardır, yekəl, birini alaq sənə. O da çəpəki baxdı, ciddi-ciddi dedi: "İsland dilini bilmirəm axı". Sanki bu layihədə yeganə problem dil baryeriymiş.

Amma bütün bu cür zarafatlarda bir həqiqət də var. Camaatımız "məişət faşizmi"nə enməyəcək qədər yüksəkdədir, övladlarının istənilən millətin nümayəndəsi ilə ailə qurmasına, prinsipcə, qarşı deyillər, buna "sümüyü it sümüyünə calama" hadisəsi kimi baxmırlar.

Hərçənd burada bir istisna hal var: heç kəs qızını yad millətlərin oğluna vermək istəmir, sadəcə, oğullarına istənilən millətin qızını ala bilərlər.

Təcrübə göstərir ki, son illərdə ölkəmizdə də qarışıq nikahlar var: ispana, ərəbə, ingilisə, əfqana, nigeriyalıya, italyana, argentinalıya ərə gedən azərbaycanlı qızlar var.

Bu, necə deyərlər, ürək-könül məsələsidir, heç vaxt "yox, övlad, öz millətimizin balasıyla evlənməlisən" deyə bir yasaq qoymaq, bunu qanun halına gətirmək olmaz. Belə bir şey edilirsə, ayrı adı yoxdur, faşizmdir.

Ancaq yenə bir istisna var. O istisna indiki durumla bağlıdır. Ermənilərlə biz düşmənik (həm də ən azı 120 ilin düşməni) deyə bu iki millətin fərdləri arasında nikahlar hər iki tərəfdə hiddət, nifrət, ikrah doğurur, qınanır, pislənir.

Budur, diaspora rəhbərinin qızı erməni oğlana ərə gedib və mediada, sosial şəbəkədə tozanaq qopub. Bunu az qala milli xəyanət kimi qələmə verənlər var. Məsələnin mahiyyəti isə başqa cürdür. Heç demə, qızın anası erməni imiş. Bu, o deməkdir ki, qız öz millətindən olan oğlana könül verib. Güman ki, onlar tanış olanda, oğlan özünün erməni olduğunu deyib və qız da ona belə cavab verib: "Mən də erməniyəm, amma yarıerməni". Bununla da məsələ bitib.

Bu, yalnız o diaspora rəhbərinin problemidir, onun qız nəvələri daha çox (75 faiz) erməni olacaqlar və ağsaqqala "baba" əvəzinə "hayrik" deyəcəklər, təhəmmül edə bilərsə, etsin, bizə nə.

Bir şeyi unutmayaq ki, bir millətin güclü, diri, bacarıqlı, intellektual olması üçün onun başqa millətlərlə nikah bağı ilə qaynayıb-qarışması şərtdir. Avropa dövlətləri bu cür inkişaf ediblər, hamısı da öz milli kimliklərini qoruyub saxlayıblar. Özləri də nənələrinin polyak, dədələrinin çex, analarının yarıfransız, atalarının yarıalman olduqlarını deyir, özlərini hansı millətə aid olduqlarını deməkdə çətinlik çəkir, amma fəxrlə, məsələn, "İsveç vətəndaşıyam" deyirlər.

Əsas məsələ də budur: hansı millətdən olursan, ol, pasportunu daşıdığın dövlətin vətəndaşı ol, içində yaşadığın xalqı sev.

# Etibar Pirverdiyev dəvə fermasını "mayninq"ə dəyişib

## Azərbaycanda böyük kriptovalyuta ferması olan məmurun kimliyi bilindi



**"Azərenerji" prezidenti Etibar Pirverdiyev dəvə fermalarını kriptovalyuta istehsal edən fermalara dəyişib. Bu haqda "Yeni Müsavat"ı məlumatlandıran mənbə deyib ki, Sumqayıtdakı sənaye zonasında Etibar Pirverdiyev böyük bir mayninq ferması inşa etdirib. Aylar öncə inşası başa çatan fermanın "Azərenerji" prezidentinə artıq böyük gəlirlər gətirdiyi haqda məlumat da var.**

Ümumilikdə isə bütün dünyada kriptovalyuta "ehtirası" artan xətt üzrədir. Belə görünür ki, azərbaycanlı məmurlar da virtual pullara çatmaq üçün əllərini sallayıb oturmayıblar, hərəkətə keçiblər. Aylar öncə redaksiyamıza daxil olan məlumatlardan bilinirdi ki, ölkəyə kriptovalyuta istehsalı üçün lazım olan xüsusi avadanlıqlar daşınmağa başlanıb.

"Yeni Müsavat"a daxil olan məlumatda deyilirdi ki, belə avadanlıqların bir partiyasını yüksək vəzifə tutan məmurlardan biri ölkəyə gətirmək istəyib. Lakin avadanlığı lazımi qaydada rəsmiləşdirməkdən yan keçmək, kriptovalyuta - bitkoin sikkələri istehsalı ilə məşğul olduğunu gizlətmək üçün fənd işlədib. Bu isə ümumilikdə avadanlığın sərhəddə ilişib qalmasına səbəb olub. Belə ki, avadanlıq adi kompüter avadanlığı kimi rəsmiləşdirilib. Sərhəddə müvafiq yoxlamalar zamanı isə məlum olub ki, avadanlıq hissələrə sökülmüş bitkoin fermasıdır. Fermanın ümumi dəyərinin 20 min manata yaxın qiymətləndirildiyi barədə də məlumat var. Avadanlığın 1 ay ərzində 3-5 bitkoin istehsal gücünün olduğu da bildirilir. Ümumdünya torunda belə avadanlıqların satışı, qiymətləri, texniki xidmət, avadanlığın gücündən asılı olaraq nə qədər gəlir gətirməsi, quraşdırılması və s. məsələlərlə bağlı çoxsaylı videolar var.

(Azərbaycanlı məmurun ölkəyə gətizdirmək istədiyi bitkoin fermasının hansı şəkildə olması, quraşdırılması haqda videonu bu yazının musavat.com saytında dərc olunan elektron versiyasında izləyə bilərsiniz.)

Hazırda əsasən "Bitmain Atnminer S9" avadanlığına böyük tələbatın olduğu haqda da məlumatlar var. Həmin avadanlığın hansı texniki vasitələrdən ibarət olması haqda bilgiləri diqqətə çatdırmazdan əvvəl qeyd edək ki, bitkoin 17 dekabr 2017-ci tarixində 20 min 078 dollar satış qiyməti ilə tarixi bir rekord qırdı. Halbuki 2-3 il əvvəl isə 1 bitkoin 1-2 dollara bərabər idi. Düzdür, tarixi maksimuma çatdıqdan sonra kriptovlyuta bir qədər zəifləyib və hazırda 1 bitkoin 10 min dollar civarında qərarlaşıb.

"Bitkoin nədir" deyə maraqlanırsınızsa invest.az-ın təqdim etdiyi aşağıdakı məqalədə ətraflı məlumat əldə edə bilərsiniz. Bitkoin Azərbaycanda yeni populyarlaşmağa başlayıb. Xarici ölkələrdə isə pulun gələcəyi olaraq tanınır. Ölkəmizdə də tədricən tanınan bitkoin, rəqəmsal dünya üçün əlverişli bir valyuta növüdür. Bu valyutaya heç bir mərkəzi olmayan virtual valyuta deyə bilərik. Satoshi Nakamoto tərəfindən 2008-ci ildə yaradılan bu valyuta qlobal bazarlarda dollar və avroya alternativ olaraq təqdim edilir. Bitkoinin ən vacib xüsusiyyəti ondan ibarətdir ki, mərkəzi bank da daxil olmaqla hər hansı bir dövlət qurumu tərəfindən idarə olunmur. Buna görə də, valyutaların qiymət hərəkəti bitkoinə heç vaxt təsir etmir. Onun dəyəri bazarda tələb və təklif şərtləri ilə müəyyən edilir. Tələb artdıqca, qiyməti artır, azaldıqda isə dəyəri aşağı düşür. Bitkoin virtual dövriyyəsi olan bir valyuta olduğundan, insanların öz şəxsiyyətlərini açıqlamadan pul göndərməyinə imkan verir. Bu sistem sizin şəxsiyyətinizi tamamilə məxfi saxlayaraq, İnternet üzərindən alış-veriş və ya investisiya etmək imkanı verir.

Bəs bitkoin necə istehsal edilir? Bu haqda əvvəl yazdıqlarımızdan sitat:

"Bu sual "Bitkoin nə deməkdir?" sualından sonra soruşa biləcəyiniz ən vacib məsələdir. Çünki pullar dövlətlər tərəfindən dövriyyəyə verilir və Bitkoinin dövlətlərlə heç bir əlaqəsi yoxdur. Bəs bitkoin necə istehsal olunur və bunu kim edir? Əlbəttə ki, kompüterlər. Bitkoin istehsalına "mayninq" (mining) deyilir. Virtual "mayninq" üsulu ilə verilmiş 16 simvolu kodlaya bilən kompüterlər bitkoin qazanır.

**Bitkoin necə qazanılır?**

İlk olaraq heç bir məbləğ ödəmədən bitkoin hesabı açmalısınız. Virtual cüzdanınızı (birdən artıq virtual cüzdan yarada bilərsiniz) yaratdıqdan sonra bitkoin şəbəkəsinin əməliyyatlarını təsdiqləmək üçün kompüterlərdə riyazi əməliyyatlar etməlisiniz. Bitkoin üçün bilik və kompüterinizə güvənməlisiniz. Bitkoin əməliyyatları kompüterinizin təchizatı ilə aparılır. Kompüteriniz nə qədər güclü olsa, performansınız o qədər yaxşı olacaq. Bitkoin əməliyyatları üçün xüsusi olaraq hazırlanmış sistemləri ala və ya icarə götürə bilərsiniz. Bu barədə bilmədiyiniz halda, mövcud "mayning hovuzlarına" (bitkoin hovuzları kimi tanınır) qoşulmaqla gəlirinizi artıra bilərsiniz. "Mayning hovuzları" olduqca çoxdur. Ümumiyyətlə, bir blokdan daxil olan ümumi gəlirlər hovuz iştirakçıları arasında xüsusi formula əsasında paylanılır. Bir növ kompüterinizin gücünü digər istifadəçilərlə birləşdirərək qazanacaqsınız. Bitkoin əldə etmək üçün mövcud pulunuzu müəyyən bir valyuta məzənnəsindən dəyişə bilərsiniz və ya bitkoin-satan sistemlərdən birbaşa əldə edə bilərsiniz. Bitkoin ilə yanaşı Ethereum, Ripple, Monero, Zcash kimi bir çox kriptovalyutalar da məşhurluq qazanmaqdadır.

❑ E.HÜSEYNOV,
"Yeni Müsavat"



# “Zamanı gələndə həmin insanları ifşa edəcəyəm”

## Qüdrət Həsənquliyev: “Cəmiyyəti inkişafın yeni mərhələsinə keçirmək istəyiriksə, islahatlar əmək haqqından başlamalıdır”

**“Baxış bucağı”**

**Deputat, BAXCP sədri Qüdrət Həsənquliyevin Milli Məclisin ötən iclasındakı çıxışı geniş rezonansa səbəb oldu. Azərbaycanla region ölkələrini müqayisə edən deputat ölkəmizdə orta aylıq əmək haqqının aşağı olmasından bəhs edib ciddi təkliflər irəli sürdü. Ancaq bu çıxışdan keçən günlər ərzində partiya sədrinin deputatların maaşını 8 min manata çatdırmaqla bağlı fikirləri daha çox müzakirə olundu və tənqid hədəfinə çevrildi. “Yeni Müsavat”ın suallarına cavabında BAXCP sədri sözügedən çıxışla bağlı məram və məqsədini geniş açıqladı:**

- Əslində mənim dediklərim ona yönəlmişdi ki, ölkədə düzgün əməkhaqqı siyasəti yürüdülməlidir. Nə qədər ki, dövlət adamları, məmurlar, qanunverici hakimiyyətin, məhkəmə hakimiyyətinin üzvləri, hüquq-mühafizə orqanlarının əməkdaşları aldıqları maaşla ləyaqətli həyat sürə bilməyəcəklər, ölkədə korrupsiyaya qarşı effektli mübarizə aparmaq mümkün olmayacaq. Ona görə ki, həmin o məmur, yaxud nəzarətedici şəxs hansısa digər məmurun dövlət əmlakını mənimsəməsinə, rüşvət almasına göz yumacaq. Bununla da çalışacaq ki, digər məmur qanunsuz əldə etdiyi gəlirlərdən ona da versin və o da normal həyatını qura bilsin. Mən çıxışımda Sinqapuru nümunə göstərdim ki, o vaxt Sinqapur möcüzəsinin banisi Li Kuan bu ölkədə islahatlara başlayanda ilk növbədə məmurların illik maaşını 2,2 milyon dollardan başladı. Bu da Sinqapur dollarından ABŞ dollarına çevirəndə təqribən 160-180 min dollarlıq aylıq maaş demək idi. O dövrdə ona bu haqda sual verəndə demişdi ki, əgər biz məmurlara ildə 2 milyon maaş verməsək, əvəzində ayda 10 milyon, bəlkə daha çox oğurlayacaqlar. Belə olduğu halda o pulları sadə vətəndaşlardan oğurlayacaqlar, yaxud rüşvət alacaqlar. İkincisi də korrupsiya iqtisadiyyatı inkişaf etdirməyə imkan verməyəcək. İqtisadiyyat inkişaf etmədiyi təqdirdə də sadə insanların maaşı, təqaüdləri qalxmayacaq. Ona görə mən çıxışımda da dedim ki, bəzi şəxslər deputatların maaşının artmasından narahat olacaqlar, amma xalqa izah etmək lazımdır ki, Sinqapurda nazirin maaşı 100 min ABŞ dolları olandan sonra orta aylıq əmək haqqı da qalxdı, oldu 58 min dollar. Ona görə də hesab edirəm ki, bu gün nazir 10 min dollar alsa, Azərbaycanda orta maaş alan adam 5 min manat alacaq.

***- Qüdrət bəy, siz buna əminsinizmi ki, o halda sadə insan da dediyiniz miqdarda maaş alacaq?***

- Bəli, ümid edirəm ki, alacaq. Məmura normal əməkhaqqı verib sonra ondan tələb etmək lazımdır ki, düz işlə. Yoxsa məmura çox aşağı məbləğdə maaş verib ondan düz işləməyi tələb etmək heç bir effekt verməyəcək. Ola bilsin ki, gözdən pərdə asmaq üçün bir-iki nəfəri məsuliyyətə də cəlb etmək olar, yaxud korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin aparıldığı görüntüsünü yaratmaq olar. Amma kütləvi şəkildə məmurlar, dövlət adamları aldıqları maaşla dolana bilmirləsə, onlar əlavə gəlir mənbələri haqda düşünəcəklər. Azərbaycanda hamı başa düşür ki, indiki maaşla yaşamaq çox çətindir. Ona görə mən dedim ki, biz islahatları dərinləşdirmədən, həmçinin əməkhaqqı siyasətinə yenidən baxmadan ciddi irəliləyişlərə nail ola bilməyəcəyik.

***- Əlləri korrupsiya və rüşvətə bulaşan şəxslərin aylıq maaşa ehtiyacı varmı? Yaxud maaş artımı vəziyyəti dəyişəcəkmi?***

- Söhbət korrupsiyaya bulaşanlardan getmir. Cəmiyyətdə dəniz kimi, içəridən təmizlənmə prosesi getməlidir. Son vaxtlar görürsünüz ki, nazirlər dəyişir, yeni kadrlar təyin olunur. Mən demirəm ki, bu, bir günün işidir, yaxud deputatın, ya nazirin əməkhaqqını qaldırmaqla hər şey düzələcək. Yox, bu, başlanğıcdır. Mən hesab edirəm ki, hökumətin üzvləri içərisində böyük əksəriyyət normal maaş alacaqlarsa, o maaşla öz həyatlarını qura biləcəklərsə, onlar əlavə gəlirlər, oğurluq, rüşvət, dövlət əmlakını mənimsəmək haqqında düşünməyə risk eləməyəcəklər. Əgər biz cəmiyyəti inkişafın yeni mərhələsinə keçirmək istəyiriksə, islahatlar əməkhaqqından başlamalıdır.

***- Deputat həmkarınız Araz Əlizadə bir sual verdi ki, kim bir ayda 52 manata dolana bilərsə, əlini qaldırsın? Bu gün 52 manat təqaüd alan insanlar varsa, yüksək məbləğ qıcıq doğurur...***

- Təbii ki, söhbət tək nazir, ya deputatın maaşının artırılmasından getmir. Həkimlərin aldığı maaş simvolikdir, 150-200 manatdır. Bu adamları xalq dolandırmasa, faktiki surətdə aldıqları o əməkhaqqı ilə yaşamaları mümkün deyil. Mən də məsələ qaldırdım ki, nə vaxta qədər insanlar kənar gəlir mənbələri barədə düşünəcəklər? Məmur da vaxtının bir hissəsini bu məsələyə sərf edir, yaxud özünün biznesini qurmağa, yaxud rüşvət almağa məcburdur. Ona görə də biz artıq bu istiqamətdə islahatlara başlamalıyıq. İkincisi də götürək elə qonşu dövlətləri... Elə Rauf bəyin (baş redaktorumuz -E.P.) də bu barədə açıqlaması var idi ki, Türkiyədə millət vəkilləri 12 min manat maaş alır. 2014-cü ildə, Krımın işğalına qədər Rusiyanın deputatları NATO Parlament Assambleyasında assosiativ üzv kimi iştirak edirdilər. O zaman mən onlardan nə qədər maaş aldıqlarını soruşmuşdum. Onlar dollar ekvivalenti ilə söyləmişdilər ki, biz 10 min dollar alırıq. Bu yaxınlarda isə hörmətli akademikimiz Kamal Abdulla Xarici Dillər Universitetində tədbir keçirirdi, orda Rusiya Dumasının bir üzvü də iştirak edirdi. Elmira xanım ondan maaşının miqdarını soruşanda dedi ki, devalvasiyadan, rubl dəyərini itirəndən sonra 6 min dollar alırıq.

***- Bizdə isə sonuncu 10 faizlik artımla deputat maaşı 2250 manat oldu, eləmi?***

- Bəli. Bu, olduqca az bir vəsaitdir. Mən iclasda da dedim ki, dəqiq bilmirəm, amma aldığım məlumata görə, Prezident Administrasiyasında şöbə müdiri Milli Məclisin rəhbərliyindən çox maaş alır. Halbuki məhkəmə kimi, Milli Məclis də hakimiyyətin müstəqil qanadıdır. Təbii ki, dövlət başçısını çıxmaq şərtilə. Çünki dövlət başçısı icra qanadının başçısı olmaqla yanaşı, həm də dövləti təmsil edir. Amma necə ola bilər ki, Administrasiyada şöbə müdiri Milli Məclisin rəhbərliyindən çox əmək haqqı alsın? Yəni burada nizam-intizam yaratmaq, yeni bir siyasət müəyyənləşdirmək lazımdır. Özü də maaşları qanunlarla müəyyənləşdirmək lazım deyil. Deyək ki, hər dəfə devalvasiya oldu, yaxud inflyasiya olandan sonra biz gərək ombudsmanın əməkhaqqını artırmaq üçün hər dəfə Konstitusiya qanunu qəbul edək. Bununçün ayrıca bir qanun qəbul etmək lazımdır. Yəni əmək haqlarını indeksləşdirək və bununla bağlı olaraq hər dəfə qanunlara xüsusi düzəlişlər etməyə ehtiyac qalmasın. İnsanların qanunlar çərçivəsində yaşamasını təmin etmək üçün, xüsusilə də dövlət adamlarının, onlara normal maaş vermək lazımdır. Ona görə də səhiyyə obyektləri özəlləşdirilməli, icbari tibbi sığorta nəhayət, tətbiq olunmalıdır.

***- Bunu əvvəlki parlament çıxışlarınızda, elə son prezident seçkisi ilə bağlı teledebatlarda da demişdiniz. Prezident özü isə seçkidən sonra bildirdi ki, bir sıra təkliflər nəzərə alınacaq. Necə bilirsiniz, nəzərə alınacaq təkliflərin sırasında bunlar da ola bilərmi?***

- Mən ümid edirəm. Bizneslə sahibkarlar məşğul olmalı, onlar vergi ödəməlidir. Dövlət özünə lazım olan işi gördürmək üçün həmin ayrı-ayrı fəaliyyət növü ilə məşğul olan, yaxud xidmət sahəsində olan şirkətlərə sifariş verməlidir, onlarla müqavilə bağlayıb işi gördürməlidir. Məsələn, niyə Bakının küçələrini Bakı Şəhər İcra Hakimiyyətinin tərkibində olan hansısa bir dövlət qurumu süpürtdürməlidir? Amma əslində İcra Hakimiyyəti hansısa şirkətlə müqavilə bağlamalıdır, küçənin təmizliyinə görə o məsuliyyət daşımalıdır, yumalı, təmizləməlidir və büdcədən də onun pulu ödənilməlidir. Mənzil təsərrüfat idarələri, “Azərsu”, “Azərenerji”, “Azəriqaz” kimi xidmət sahələri özəlləşdirilməlidir. Ona görə ki, o xidmət sahələrinin yenidən qurulmasına böyük məbləğdə pullar lazımdır. Prezident seçkisində də dedim ki, təkcə Bakı şəhərində köhnəlmiş qaz kəmərlərinin dəyişdirilməsinə 1 milyard dollara yaxın vəsait lazımdır. Hazırda dövlətin bu vəsaiti qoymağa imkanı yoxdur. Ona görə də bu sahəni 99 illiyə hansısa şirkətə, əməli idarəetməyə vermək olar. Azərbaycanda bir vaxt “Barmek” nümunəsi də olub. Dövlət yavaş-yavaş biznes fəaliyyətindən azad olunmalı, tənzimləyici funksiyanı yerinə yetirməli və qanunlar qəbul etməklə iş adamlarının, biznes adamlarının önünü açmalıdır ki, həm Azərbaycana xarici investisiyalar cəlb olunsun, xaricdən sahibkarlar gəlsinlər, ölkəmizə investisiya qoysunlar. Bunun üçün də vergi yükü azaldılmalıdır və qanunun aliliyi təmin olunmalıdır. Xarici sahibkar bilməlidir ki, burada onun mülkiyyəti, əmlakı qanunla ciddi şəkildə qorunur və heç kim onun əmlakına toxuna bilməyəcək.

***- Amma sizin digər dedikləriniz arxa plana keçidi və həm mətbuatda, həm sosial mediada daha çox deputatların maaşı ilə bağlı təklifinizdən danışıldı, sərt şəkildə tənqid olundunuz...***

- Məqsədyönlü şəkildə bir qrup yaramaz insan məsələni bu cür təqdim etdilər ki, Qüdrət Həsənquliyev deyib deputatların əmək haqqı artırılsın. Halbuki, mən orda orta əmək haqqının 5 minə qədər qaldırılmasını təklif etmişdim. Yəni əgər nazir 10 min alacaqsa, orta aylıq əməkhaqqı 5 min olacaq. İndi tutaq ki, orta aylıq əmək haqqı ilə nazirin maaşı arasındakı fərq 4-5 dəfədir. Amma mənim irəli sürdüyüm təklifdə nazirin də maaşı qalxır, orta aylıq maaş da qalxır. 5 min manat alan vətəndaş öz həyatını kifayət qədər yaxşı qura biləcək. Orta aylıq əmək haqqından söhbət gedir, bura müəllim də, həkim də, dövlət qulluğunda, biznes strukturlarında olanlar və s. də aiddir. Əlbəttə, orta aylıq əmək haqqı 500 manatdırsa və deputatın da maaşı birdən-birə 8 min olursa, bu, əlbəttə, qıcıq doğuracaq.



**“Orta aylıq əməkhaqqı 500 manatdırsa və deputatın da maaşı birdən-birə 8 min olursa, bu, əlbəttə ki, qıcıq doğuracaq”**

***- Geniş rezonansa səbəb olan bu çıxışınıza məmur təbəqəsindən hansısa reaksiya verildimi? Onlar necə, məmnun qaldılarmı?***

- Yox, reaksiya olmadı. Mən hesab edirəm ki, ağlı başında olan hər bir azərbaycanlı mənim çıxışımı normal qarşılamalı idi. Kim istəməz ki, ölkədə hamının əmək haqqı yüksəlsin? Sadəcə olaraq bizdə jurnalistikada da, siyasətdə də yaramaz ünsürlər var. Onlar ayrı-ayrı sifarişlərlə, bəziləri reketlik naminə, utanmadan, öz peşələrinə xəyanət edərək, informasiyanı birmənalı çatdırdılar. Açıq deyək, cəmiyyətdə də siyasi mədəniyyət yüksək olmadığından, həm də biz emosional xalq olduğumuzdan yazılmış informasiyanın nə dərəcədə doğru olduğunu araşdırmadan, mənim çıxışımın tam mətni ilə tanış olmadan, başladılar ki, bəs, bu nədir, orta aylıq əmək haqqı 500 manatdır, Qüdrət Həsənquliyev deyir deputatın maşı 8 min manat olsun? Bəziləri hətta bütün ədəb-ərkanı unudaraq təhqirə keçdilər. Əlbəttə, bütün cəmiyyətlərdə olduğu kimi, bizim də cəmiyyətimizdə əxlaqsız, namussuz, tərbiyəsiz elementlər var. Namuslu adam söyüş söyməz. Kimsə söyüş söyürsə, təhqirə keçirsə, bilin ki, o, namussuz insandır. Namussuz insanlara da mənim baş qoşmağıma dəyməz. Amma siz özünüz parlament müxbiri olaraq şahidsiniz, özümü tərifləmirəm, amma o parlamentdə sadə insanların hüquq və azadlıqlarının qorunması ilə bağlı ən fəal mübarizə aparan insanlardan biri hesab edirəm ki, mənəm. Elə son iclasda da mən əlillərlə bağlı məsələ qaldırdım ki, prezidentin təsdiq etdiyi Dövlət Proqramı var, 2014-2018-ci illərdə 5700-dən artıq əlilin mənzillə təmin olunması vəzifəsi qoyulub. İl başa çatır və mən nazir müavini Natiq müəllimə sual verdim ki, 5700-dən artıq insanın neçəsinə mənzil verilib, neçəsinə verilməyib? Amma o, bu suala cavab vermədi. Mən büdcənin müzakirələrində də hər zaman pensiyaların, əmək haqqının azlığından, müəllimlərin, həkimlərin maaşının aşağı olmasından danışmışam, amnistiya, əfvlə, milli barışıqla bağlı məsələlər qaldırmışam. Ona görə də açığı, son dərəcədə vicdansız, ləyaqət hissini itirmiş adamlar mənə o formada hücum edə bilərdilər ki, bu da təşkil olunmuş məsələ idi. Bu, bəzi yüksək dairələrdən qaynaqlanır, hələlik bu barədə geniş danışmaq istəmirəm. Yəqin ki, zamanı gələndə həmin insanları necə lazımdırsa, ifşa edəcəyəm.

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 99 (6988) 7 may 2018



# Timsah teatrı

Zamin HACI
zaminhaci@gmail.com

## "Aslanların nəslinin tükənməsi çaqqallara hörmət bəsləməyə əsas vermir" (Naməlum müdrik)

**Azərbaycanda rəsmi biologiya elminə, dövlət qərarlarına və qanunvericiliyə inansaq, timsahlar yaşamır. Ancaq nə qədər timsah göz yaşı axıdan varmış... Bunlardan bir dəstəsi hazırda aktyor Fuad Poladovun arxasıyca ağlaşma qurmuşdur. Halbuki, ölkədə teatr sənətinin, o cümlədən aktyor peşəsinin tabutuna sonuncu mıxı bəlkə 10 ildir tappıltıyla vurublar, sonradan o tabutu cəhənnəmin ən dərin qatına tolazlayıblar. İndi özünə hörmət qoyan kimsə bu cür sənət-mənət işləriylə məşğul olmur. Hərəsi birküncə çəkilib Fuad bəy kimi təktənha ölməkdədir.**

Təsəvvür edin, ölkənin əsas teatrlarından birinin baş rejissoru qaz idarəsi müdirinin cızmaqaralarından həzz aldığını jurnalistlərə bildirirsə, oradan nə gözləyəsən? Hər teatr bir ailənin şəxsi təsərrüfatına döndərilmişdir. Oralarda fağır Hamletin hansısa Həmdulla müəllim qədər hörməti qalmayıbdır. Gənclər Teatrı, Yuğ Teatrı, Kamera Teatrı, Pantomim Teatrı, lap elə Bakı Uşaq Teatrı, hətta əyalət teatrlarının (Şəki, Lənkəran, Füzuli və sairə) yüksək performans göstərdiyi zamanlar harda qaldı? Bunlar sanki olmayıblar. Şair demişkən: "Yerəmi batdı oğlum, göyəmi çıxdı oğlum? Bəlkə mən yanılmışam, əzəldən yoxdu oğlum?!". Teatr binaları yüksək zövqsüzlüklə remont edildi, çölü bəzək, içi təzək şəklinə salındı. Aktyorlara o qədər fəxri adlar yapışdırdılar ki, artıq onlar oynamağa utandılar: "Necə bəyəm, bu qədər medalı olan mən, səhnəyə çıxıb hansısa atasından bixəbəri (misal üçün Hamleti) oynamalıyam? Aşağı yeri kral roludur!". Məktəbləri çöldən təmir edib içəridən təhsili məhv elədikləri kimi. Yolları avrotəmirdən çıxarıb getməyə yer qoymadıqları kimi. Patriotizmdən nağıllar uydurub azərbaycanlıların ana dilində danışmağı ayıb saydıqları kimi.

Sözgəlişi, bizim bu "timsah göz yaşları" haqda düşüncələrimizdə də köklü yanlış vardır. Əgər inanmırsansa sorğu keçirt, hər 10 adamdan bəlkə 11-i deyəcək ki, timsahlar ovunu udduqdan sonra ona acıyıb ağlayır. Əslində isə timsahlar bədənlərindəki duzları xüsusi vəzlər vasitəsiylə bayıra çıxarırlar, bu vəzlər isə timsahın göz nahiyəsində, lap çöldə yerləşir. Timsahlarda insandan fərqli olaraq ümumiyyətlə, göz yaşı vəzləri yoxdur.

Bu mənada timsahların ağlı olsa, şübhəsiz bizi məhkəməyə verərdilər. Özü də Ağır Cinayətlər Məhkəməsinə. Oranın hakimləri böyük ehtimalla timsahların xeyrinə qərar çıxarardılar, çünki belə öyrəşiblər. Millət də belə öyrəşib. Bir holdinq haqda yazı oxudum. Sən demə bunun şefi uzun müddət hansısa nüfuzlu şəxsin adından yararlanıb vergilərdən yayınırmış. Guya holdinqin həmin şəxsə məxsus olduğunu deyirmiş. Vergi orqanları da, rəsmi dildə desək, "müvafiq olaraq" bunun qulağını tutub kəsə bilmirmiş. Kəsmək cəhənnəmə, adam heç vergilərin dövlət büdcəsinə çatacaq hissəsini (rəhmətlik gömrük şefi Tahir Əliyev demişkən, "rüşvətin içində rüsum da olur") belə ödəməzmiş, bəhanəsi bu imiş ki, şirkət ziyanla işləyir. Prinsipcə, elə hamımız ziyanla işləyirik, burasını qardaş doğru deyib. Oğurluq edə-edə, yalan danışa-danışa, yaltaqlana-yaltaqlana xəbərimiz yoxdur ki, hamımız batırıq. Bu cür mühitdə heç kəsin qazancı ola bilməz. Əlbəttə, bunu bir az da başa düşürlər, ona görə hamısı çalışır uşağını bu ... -batırdıqları yerdən qırağa çıxartsınlar, xaricdə oxudub, xaricdə evlər alsınlar.

Yeri gəlmişkən, bizim deputatlar, məmurlar bəzən Avropanı, Qərbi "Orda çoxlu juliklər, avaralar, quldurlar, rüşvətxorlar, savadsızlar var" deyə niyə qınayırlar, bilirsinizmi? Çünki öz uşaqlarını yaxşı tanıyırlar.

# Moskvanın erməni gedişi: kimə "mat" deyiləcək?

**Serj Sərkisyan baş nazir postundan istefa verdikdən sonra Ermənistanda daxili siyasi böhran səngimək əvəzinə, artıq üçüncü həftəyə keçib. İşğalçı ölkədə ikihakimiyyətlilikdir: bir yandan, Qarabağ klanı Rusiya ilə əlaqələri hesabına öz mövqeyini qoruyub saxlamağın yollarını arayırsa, digər yandan, üsyançı deputat Nikol Paşinyanın başçılıq etdiyi "küçə hakimiyyəti" rejimə təzyiqləri günbəgün artırır.**



## Ermənistan üçün inqilab tələsi - Şuşanın işğal günündə...

### Sabah parlament axırıncı cəhddə ölkənin 1-ci şəxsini seçməlidir; mayın 8-i ermənilərə, Qarabağ klanına nə vəd edir? Politoloqlardan fərqli rəy və gözləntilər...

Maraqlıdır ki, bir sıra təhlilçilər ermənilərin Moskvaya sədaqət dərəcəsindən çıxış edərək, baş verənləri məxməri inqilab adlandırmağa tələsmir, bunu sırf "erməni inqilabı" adlandırırlar. Ancaq üsyan qalib gələndə inqilab, məğlub olanda isə elə üsyan kimi tarixə düşür. Sərkisyanın istefasından sonra isə hakimiyyət sükanı hələ ki, legitim olaraq müxalifətə keçməyib. Bu mənada ermənilərin tələyə düşdüyünü düşünənlər də var.

*****

Sabah - mayın 8-də Ermənistan parlament ikinci və axırıncı cəhddə ölkənin 1-ci şəxsini - baş naziri seçməlidir. Əgər bu dəfə də baş nazir seçilməsə, konstitusiyaya görə, parlament buraxılmalı və 3 ay ərazində yeni seçkilər keçirilməlidir. "Yeni Müsavat" xatırladır ki, bir həftə öncə keçirilən səsvermədə yeganə iddiaçı Nikol Paşinyanı 105 deputatdan 45-i dəstəkləmiş, 55 deputat, əsasən də hakim partiyanın təmsilçiləri isə vədlərini tutmayaraq, onun əleyhinə səs vermişdilər (Qələbə üçün 53 səs lazım idi).

Bu dəfə də yeganə namizədin yenə Nikol Paşinyan olacağı gözlənilir. Artıq parlamentdəki 4 deputat fraksiyasından üçü - "Tsarukyan", "Çıxış", və "Daşnaksütyun" onun xeyrinə gərəkən imzaları verib. Hakim Respublikaçılar Partiyası isə parlamentin 1/3-də birinin dəstəklədiyi namizədə mane olmayacağını bəyan edib. Yeni baş nazir isə növbədənkənar parlament seçkiləri keçirilənədək ali baş komandan və Təhlükəsizlik Şurasının rəhbəri olacaq. Məsələnin Azərbaycan üçün önəmi həm də bundan ibarətdir.

*****

Sabahkı hadisə ilə bağlı Ermənistan daxilində gərginlik, əsəbi bir ab-hava hökm sürür. Çünki ilk baxışda 8 may səsverməsinin nəticələri bəlli kimi görünsə də, fors-major vəziyyətlər də istisna deyil. Hər halda hakim qüvvə, ölkəni 20 ildir idarə edən Qarabağ klanı, Sərkisyan-Köçəryan tandemi məğlubiyyətlə asanca barışana, hakimiyyəti problemsiz Paşinyana verənə oxşamır. Proseslərdə Moskvanın gizli "dirijor çübuğu" da işini görməkdədir.

Nəhayət, onu da unutmaq olmaz ki, Ermənistan 1999-cu ildə parlamenti gülləbaran edilən və nəticədə baş nazir və spiker də daxil, 8 nəfərin öldürüldüyü, yəni terrorun siyasi mübarizə vasitəsi kimi məqbul sayıldığı ölkədir.

*****

Parlamentin 8 may krtik iclası ilə bağlı yerli və xarici ekspert gözləntiləri müxtəlifdir. "Yeni Müsavat" xəbər verir ki, erməni politoloq Aleksandr İsgəndəryana görə, bundan sonra proseslərin üç inkişaf variantı mümkündür: "Ya Paşinyan parlamentdə onun qələbəsi üçün çatmayan səsləri qoparda biləcək, ya ona respublikaçılara zəmanət vermək müyəssər olacaq, ya da parlament buraxılacaq. Bu, heç də ən yaxşı variant deyil, nədən ki, seçkiləri hazırkı seçki komissiyaları təşkil edəcək və bu, bir ay və ya ayarım sonra baş verəcək - nə vaxt ki, Paşinyanın partiyası azlıqda olacaq".

"Xalq hərəkatı mahiyyət etibarilə ən həyəcanlı fazasına girib. Risk qismində nəzəri ssenarilər çoxsaylı ola bilər - Paşinyanın yerinə bir başqasının olmasından tutmuş, son anda hakim partiyanın səsvermədən imtina eləməsi və beləliklə, müvəqqəti hökumət yaradılaraq erkən seçkilərə gedilməsi variantına kimi". Bu sözlər isə 1 in.am nəşrinin siyasi şərhçisi Aram Amatuninin məqaləsindədir.

Müəllif ardınca yazır: "Başqa ağla gələn və gəlməyən ssenarilərdən də söz açmaq olar - o cümlədən hakim partiyanın öz mövqelərini saxlamaq üçün cəbhə xəttində təxribat törətməsinədək. Hər halda son olaylar göstərir ki, bu partiyadan hakimiyyəti saxlamaq naminə istənilən hərəkəti gözləmək olar. Aydın deyil ki, cəmi bir gün içində hakim partiyanı öz mövqeyini dəyişməyə nə vadar edib? Siyasi məntiq diktə edir ki, mayın 8-də Ermənistanda yeni baş nazir olacaq. Amma gəlin, yüz faizlik iddiadan çəkinək - ta ki, həmin gün parlamentin tablosunda məxməri inqilabın qələbəsi fiksə olunanadək".

*****

"Hazırda Ermənistanda diaspor ilə Rusiyanın kəşfiyyat orqanları arasında ciddi mübarizə gedir". Bu sözləri Axar.az-a politoloq Qabil Hüseynli deyib. O bildirib ki, diaspor Ermənistan üçün mənşəcə ermənistanlı olan yeni bir rəhbər axtarır: "Bu mübarizədə diasporun pul vasitəsi ilə bütövlükdə prosesləri nəzarət altına ala biləcəyinə inanmıram. Rusiya artıq bu işə var qüvvəsini sərf edir. Rusiya, eləcə də Qarabağ klanı Ermənistanda situasiyanı qoruyacaq və buradakı vəziyyətə nəzarəti ələ alacaq. Çünki Paşinyan indiki şəraitdə diasporun da ümidlərini doğrulda bilməz. Ermənistanda çox çətin və spesifik şərait yaradılıb, Ermənistan dövlətçiliyi tamamilə dağılıb. Bu kontekstdə Rusiya artıq buradakı prosesləri yaxından izləyir və sona qədər də nəzarət etmək fikrindədir".

Politoloqun fikrincə, Ermənistanda hadisələr Rusiyanın ssenarisi əsasında gedir. Onun fikrincə, digər maraqlı məqam odur ki, Ermənistan parlamentinin nizamnaməsinə görə, bir dəfə seçilməyən adamın namizədliyi ikinci dəfə verilə bilməz: "Ancaq Paşinyanın ikinci dəfə namizədliyini verəcəyi deyilir. Əsas məsələ səs yığmaqdır. Mən inanmıram ki, Paşinyan özünə lazım olan səsi toplasın".

"Məncə, Paşinyanın əmlakın yenidən bölüşdürülməsiylə bağlı çox böyük sosial proqramı var. Bu isə hər zaman ictimaiyyəti həyəcanlandırır, daxili gərginliyi gücləndirir. Bəzən isə onu vətəndaş müharibəsinə çevirir". Bunu isə "Moskva-Bakı" portalına müsahibəsində rusiyalı yazar, ideoloq Aleksandr Proxanov deyib. Onun sözlərinə görə, Paşinyan və Sərkisyan tərəfdarlarının qarşıdurması Qarabağ və İrəvan klanlarının qarşıdurması kimi qəbul edilə bilər: "Bu konflikt çoxdan mövcuddur və indi daha sərt forma alıb. Tərəflərdən birinin qələbəsi konfliktin yatırılması demək deyil. Bundan sonra Ermənistanda Amerikanın mövcudluğu güclənəcək. Erməni ictimaiyyəti isə çox güclü şəkildə amerikanlaşdırılıb. Moskva Vaşinqtonun buradakı böyük təsirinə dözməyəcək".

*****

ABŞ isə bu arada "Ermənistanın yeni hökuməti ilə əməkdaşlığa hazır olduğunu" bəyan edib. Dövlət Departamentinin rəsmi nümayəndəsi Hizer Noyert onu da deyib ki, Ermənistandakı siyasi proseslər bu ölkənin daxili işidir. "Biz əminik ki, yaranmış situasiya Ermənistan konstitusiyasına uyğun olaraq, sülh yolu ilə həll ediləcək. Biz Ermənistana dost ölkə kimi, siyasi dalandan çıxış üçün konstruktiv dialoqun tərəfdarıyıq", - deyə o qeyd edib.

Rusiya isə "yeni hökumətlə işləməyə hazır olduğunu" bəyan eləməyə tələsmir. Hələ ki, Moskvadan analoji bəyanat səslənməyib. Bu da ehtimal eləməyə əsas verir ki, Kreml hər halda Paşinyan və dəstəsinin Rusiyayönlü bəyanatlarının səmimiliyinə tam inanmır. Ermənistandakı proseslərdə əsas sözü isə yəqin ki, yenə Rusiya deyəcək. Kremlin şahmat dili ilə desək, erməni gedişi nə olacaq, Qarabağ klanına, ABŞ-a, yoxsa Paşinyana "mat" deyiləcək? 1 gün gözləyək.

*****

Sonda əlavə edək ki, 8 may həm də Azərbaycanın mədəniyyət beşiyi olan Şuşanın işğal günüdür. Ümid edək ki, budəfəki ildönüm erməniləri "ikiqat" bayram əhvalına deyil, yasa batıracaq. Zatən, gec-tez Şuşaya görə düşmən onsuz da bədəl ödəyəcək - Paşinyan baş nazir, ali baş komandan olsa da, olmasa da...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Sabah Azərbaycanın qədim ərazisi olan Şuşanın Ermənistan tərəfindən işğal olunmasından 26 il keçir. Azərbaycanın bu qədim, zəngin tarixə və mədəniyyətə malik şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də ələ keçirilməsi ilə Dağlıq Qarabağın işğalı başa çatdırılıb. Bununla, ermənilər bölgənin Azərbaycandan faktiki qoparılmasına nail olublar.**




# Şuşanın işğalının ildönümü ərəfəsində düşmənə lokal zərbə fürsəti

## **Ekspert:** "Azərbaycan maraqlıdır ki, Ermənistanda etiraz dalğası öz məntiqi nəticəsinə çatsın və Qarabağ klanı tamamilə hakimiyyətdən uzaqlaşdırılsın..."

Şuşanın işğalı nəticəsində 480 günahsız vətəndaş qətlə yetirilib, 600 nəfər yaralanıb, 68 nəfər əsir götürülüb, 22 min nəfər öz yurdundan didərgin düşüb. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur. İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilib. Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da daxil olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir.

Ümumilikdə, 1992-ci il mayın 8-də Ermənistan Silahlı Qüvvələrinin Şuşanı işğal etməsi nəticəsində Azərbaycanın 289 kvadrat metr ərazisi ermənilərin nəzarətinə keçib. Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejim artıq uzun müddətdir Şuşada qanunsuz məskunlaşdırma həyata keçirir. Hər il mayın 8-də Şuşanın işğalı gününü bayram kimi təntənəli qeyd edirlər. Builki ildönümü isə ermənilər üçün gərginliklərin yaşandığı günlərə təsadüf edir. Mayın 8-də Ermənistan parlamentində müxalifət lideri Nikol Paşinyanın baş nazir seçilməsi məsələsi səsverməyə çıxarılacaq. Ermənistanda hakimiyyətdən uzaqlaşdırılmaq üzrə olan Qarabağ klanı özünü qorumaq üçün ən müxtəlif variantlara əl atır. Bəs, Qarabağ klanının, hərbi xuntanın seçkiləri pozmaq, proseslərə təsir etmək üçün Qarabağda hərbi təxribatlara əl atması mümkündürmü? Azərbaycan Ermənistandakı vəziyyətdən istifadə edib məhz Şuşanın işğalı günündə lokal hərbi əməliyyatlara başlamalıdırmı?



Politoloq Natiq Miri bildirdi ki, 8 may Ermənistan üçün, təbii ki, həssas bir gündür: "O mənada ki, Ermənistanda uzun müddətdir mövcud olan Qarabağ klanının hakimiyyətinə son veriləcək. Bu da Ermənistanda yeni bir siyasi dönəmin başlanmasıdır. Ancaq təbii ki, bunu istəməyən qüvvələr var və bu qüvvələr hakimiyyətdən düşürülən Serj Sərkisyan rejiminin nümayəndələri, eyni zamanda, Azərbaycan ərazisi olan Dağlıq Qarabağdakı generalitet, bu generalitetin işlədiyi Rusiyanın xüsusi xidmət orqanları cəbhədə ciddi gərginlik yaratmağa cəhd edə bilərlər. Çünki onların bu cür təxribatları nəticəsində əslində Ermənistanı hansı təhlükənin gözləməsi ilə xalqın gözünü qorxutmaq, xof yaratmaq və yenidən Qarabağda müharibə ideyasını ortaya atmaqla ölkənin daxilindəki xalq etirazlarını dayandırmaq məqsədi güdə bilərlər. Lakin bu, yalnız ehtimaldır. Ona görə ki, bu gün Ermənistanda hətta Respublika Partiyasının daxilində ölkədə vəziyyətin tamamilə nəzarətdən çıxmasını istəməyən ağlı başında olan siyasətçilər də mövcuddur. O baxımdan düşünürəm ki, cəbhə xəttində ermənilərin hücuma keçə biləcəyi nəzəri baxımdan ehtimal olsa da, buna real olaraq gediləcəyi ehtimalı çox azdır. Mayın 8-də baş nazir seçkisi Ermənistan parlamentində baş tutacaq və çox böyük ehtimalla Respublika Partiyasından olan biznesmen deputatlar da Nikol Paşinyanın seçilməsinə səs verəcəklər. Paşinyanın baş nazir seçilməsinin qarşısını, məncə, cəbhədə gərginlik yaratmaqla da ala bilməyəcəklərini Qarabağ klanı özü üçün qətiləşdirib".

O ki qaldı Azərbaycanın Ermənistandakı gərginlikdən istifadə edərək sürətli, lakin lokal hərbi əməliyyatlara başlaması məsələsinə, N.Miri hesab edir ki, Azərbaycanın belə bir addım atması gözlənilmir: "Azərbaycan rəhbərliyi çox gözəl anlayır ki, bu gün dünyanın diqqət mərkəzində olan regionlardan biri də məhz Ermənistandır, ayrıca 8 may Ermənistanda çox həlledici günüdür - Ermənistanda yeni siyasi dönəmin başlanğıcı gündür və belə bir gündə hərbi əməliyyatlara başlasa, həm Rusiya, həm də Qərb tərəfindən çox ciddi təpkilərlə qarşılana bilər. İkincisi, bu gün Azərbaycan maraqlıdır ki, Ermənistanda etiraz dalğası öz məntiqi nəticəsinə çatsın, Serj Sərkisyan rejimi, Qarabağ klanı devrilsin və tamamilə hakimiyyətdən uzaqlaşdırılsın.

Məhz bütün bunları nəzərə alaraq, diqqət etdinizsə, Azərbaycan cəbhə xəttində müəyyən hərbi texnika və canlı qüvvə baxımından cəmləşsə də, hər hansı hərbi hərəkətlənməyə yol vermədi. Əslində Azərbaycan bu cür davranmaqla Sərkisyan rejiminin əlinə bəhanə vermədi. Azərbaycan doğru davranış nümayiş etdirdi. Bu cür ağıllı davranış mayın 8-də də davam etdirilməlidir. Azərbaycan Ermənistandakı prosesin öz məntiqi nəticəsinə çatması üçün şərait yaratmalıdır".

Politoloqun sözlərinə görə, "Nikol Paşinyan Ermənistanın Saakaşvilisi olacaq" kimi şərhlər, iddialar fərziyyədən ibarətdir: "Nikol Paşinyan o qədər sistemli islhatalar apara biləcək bir fiqur deyil. Onun bu gün Qərb tərəfindən ciddi dəstəyi yoxdur. Bu gün ABŞ-da Paşinyana ciddi siyasi fiqur kimi yanaşılmır. Düşünürlər ki, Paşinyanla uzaq perspektivə yönəlik əməkdaşlıq eləmək mümkün deyil. Odur ki, Nikol Paşinyanı Mixail Saakaşvili ilə eyniləşdirmək üçün ciddi əsaslar yoxdur. Qısa müddət ərzində Paşinyan Ermənistanda Saakaşvilinin Gürcüstanda edə bildiklərini edə bilməyəcək və qısa müddətdə erməni ictimaiyyəti arasında nüfuzunu itirəcək. Azərbaycan çox gözəl bilir ki, əgər Nikol Paşinyan həqiqətən də xalqın çiynində hakimiyyətə gəlirsə və Ermənistanın iqtisadiyyatının önünü açmaq istəyirsə, bu yol yalnız regionda mühüm dövlətlər olan Azərbaycan və Türkiyə ilə münasibətlərin düzəlməsindən keçir. Bu olmadan Ermənistanın iqtisadiyyatının inkişafı mümkün deyil. Artıq sübut edilib ki, Rusiya və İranla əlaqələr Ermənistanın iqtisadiyyatını heç də inkişaf etdirə bilməyib. Ermənistan bütün enerji və qlobal layihələrdən məhrum vəziyyətə düşmüş dövlətdir. Bu vəziyyətdən o yalnız Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqla çıxa bilər. Azərbaycan və Türkiyə ilə anlaşma isə Dağlıq Qarabağ probleminin həllindən keçir. Nikol Paşinyan bu reallığı qəbul edib buna uyğun konstruktiv addımlar atmayacağı halda onun da Ermənistandakı vəziyyəti düzəltməsi mümkün olmayacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Rusiya prezidentinə qarşı inanılmaz iddialar

## İspaniyada "rus mafiyası" üzərində məhkəmə başa çatıb



**İspaniyanın paytaxtı Madrid şəhərində "rus mafiyası" üzrə iş başa çatıb. Prosesi izləyən Fransanın "Mediapart" qəzetinin yazarı Pyer Haffner istintaqın 10 ildən çox davam etdiyini yazıb. İyun ayında hökmün veriləcəyi gözlənilir.**

İspaniya polisinin verdiyi xəbərə görə, ittiham olunan şəxslər Kremldə oturan nüfuzlu adamlarla əlaqədə olublar, hətta onların əmrlərini icra ediblər. "İspaniya hüquq-mühafizə orqanlarının "Troyka" adlandırdığı xüsusi əməliyyatı zamanı qeyri-qanuni pulların "yuyulması"ndan tutmuş, narkotik ticarəti və silah satışına qədər bir çox işlərin üstü açılıb.

İttiham olunanlar 1990-cı illərdə Sankt-Peterburqdan çıxan "Tambov-Malışevski" cinayətkar dəstənin üzvləridir. Qəzetin yazdığına əsasən, həmin vaxtlarda Vladimir Putin şəhərin vitse-meri vəzifəsini icra edərək, bəhs edilən cinayətkar elementlərlə iş münasibətlərinə malik olub.

"İttiham olunanlar arasında Gennadi Petrov və İlya Traberin adını xüsusi qeyd etmək lazımdır. Onların hər ikisini ispan polisi axtarışa verib. İkisi də hazırda Rusiyadadır. Gennadi Petrov məhkəmə prosesi zamanı anasına baş çəkmək bəhanəsi ilə İspaniyadan qaçıb" - məqalədə qeyd olunur.

Müəllif məhkəmədə müdafiə tərəfinin iddialarının əksinə olaraq, "Tambov bandası" mövzusunun mətbuat tərəfindən uydurulmadığı, əksinə olduqca təhlükəli mütəşəkkil qrup olduğunu yazır. 1990-cı illərdə bu banda faktiki olaraq Sankt-Peterburqa nəzarət edib, "Antikvar" ləqəbli İlya Traberin iyerarxik mövqeyinə görə hətta Vladimir Putindən belə böyük olduğunu yazıb.

Məqalədə Putinin iş adamı Roman Tsepov vasitəsilə cinayətkar aləmdən zərflərlə pul aldığı yazılıb. Haffner "çox şey bilən" Roman Tsepovun 2004-cü ildə Polonium radioktiv maddəsi ilə öldürüldüyünü yazır. Roman Stepovun dəfnində onun bir vaxtlar aralarında vasitəçi olduğu müxtəlif qrupların nümayəndələri iştirak ediblər. Bunlar Vladimir Putinin şəxsi mühafizəsinin rəhbəri general Viktor Zolotov, "Tambov" mütəşəkkil cinayətkar qrupun başçısı Vladimir Kumarin (Barsukov) və Sankt Peterburq baş polis idarəsinin rəisi Mixail Vaniçkindir.

Maraqlıdır ki, Roman Tsepovun ölümündən cəmi 2 il sonra Rusiyanın mühacirətdə olan dissident və keçmiş kəşfiyyatçısı Aleksandr Litvinenko da eyni üsulla qətlə yetirilir. Litvinenko İspaniya ədaləti qarşısında Putini "Tambov mafiyası" ilə bağlayan münasibətlər barədə ifadə verməli imiş.

İspaniya polisinin adı çəkilən şəxslərdən Gennadi Petrovu gizli dinləməsi zamanı daha maraqlı faktların üstü açılıb. Belə ki, Petrov Kremldəki adamla telefon söhbətlərindən birində "Çar bizə lazım olan sənədi imzaladımı" sualını verib. Məqalədə G.Petrovun Rusiyada müxtəlif vəzifələrə özünə yaxın adamların, o cümlədən keçmiş müdafiə naziri Anatoli Serdyukovun təyinatında mühüm rol oynadığı qeyd olunub.

Yazıda Malışev cinayətkar qrupunun lideri sayılan Gennadi Petrovun Rusiyada olduqca nüfuzlu adamlarla, o cümlədən "Sberbank"ın rəhbəri German Qreflə xüsusi münasibətlərinin olduğu bildirilir. Qref onu hətta "Sberbank"ın 160 illik yubileyinə dəvət edibmiş.

Məhkəmədə Rusiya Dövlət Dumasının deputatı Vladislav Reznikə qarşı ittihamlar səsləndirilib. Reznik Petrovun milyonlarla dollar pullarının saxta şirkətlər, yaxtalar, villa və təyyarələr vasitəsilə "yumaq"da günahlandırılır.

İspaniya prokurorluğunun ümumi təsbitlərinə görə, "Tambov mafiyası" təkcə İspaniyada 50 milyon avronu leqallaşdırmağa, yəni yumağa nail olub. Prokurorluq Reznikə 5 il həbs cəzası, 30 milyon dollarlıq cərimə tətbiq olunmasını tələb edib.

"Rusiya mafiyası üzərində əsl məhkəmə prosesi Moskvada getməlidir. Lakin hakimiyyətdə Putin və ya onun varisinin simasında Rusiya kəşfiyyatı qaldıqca bu mümkün görünmür", - deyə Haffner məqaləni sonunda qeyd edib.

❑ **Vaqif Hüseyn, Musavat.com**



# Rəqsanənin qızı və biz....

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Ötən həftə sosial sahədə əsəbimizi cırmaqlayan iki hadisə baş verdi. Əslində başqa sahələrdə belə hadisələr çox olur. Amma haqqında danışacaqlarım sırf uşaqlarla bağlı olduğu üçün diqqətçəkən idi.**

Birincisi, məktəbdə döyülən və sonradan valideyni tərəfindən də fiziki təzyiqə məruz qalan birinci sinif şagirdi barədə. Hadisənin videoçəkilişlərinə böyük əksəriyyət baxıb. Valideyn alnı göyərmiş, qızarmış övladını nümayiş etdirərək, müəlliməsinin onu döydüyünü iddia edir, yeni təhsil naziri də müəllimәni işdən çıxarır. Sonra ortaya videoğörüntülər çıxır və məlum olur ki, uşağı elə sinifdə, sonra da koridorda valideyni də vurur aramsız. Evdə başına nə oyun gətirir, ondan xəbərimiz yox.

Sonra başlanır artistizmlər. Ana çıxır facebookda canlı yayımlara, şoular, duyğu sömürüləri... Arqumenti də bu olur ki, bəs uşağı "sən niyə özünü döydürürsən" deyərək, hirslənib döyübmüş. Vallah bilmirsən, gülәsən, ya ağlayasan. Rəsmən əri döyən arvadı itin də bir tərəfdən qapması misalı. Və ya üzrü günahından betərmi desək? Fakt budur ki, bu, xalq təbirincə desək, işverənlikdən başqa bir şey deyil. Əgər uşağını gerçəkdən müəllimə döyübsə, valideyn olaraq şikayət etməli, bu məsələdə uşağı boks yastığına çevirməməlisən. Yox, əgər özün döyübsənsə, o zaman ayıbına kor olub oturmalı, kanal-kanal gəzib şou yaratmamalısan. Avropa ölkələrinin təcrübəsində belə hallar valideynin həbsi ilə, uşağının əlindən alınması ilə nəticələnir. Amma bizdə qızını döyməyənin dizini döyməsi, "uşaq mənimdir, sevərəm də, döyərəm də" tipli misallar bol olduğu üçün bütün hallarda valideyn suçlu sayılmır.

Suçlu sayılan başqa bir şəxs isə 1 saylı Körpələr Evinin rəhbərliyidir. Müğənni Rəqsanənin qızı körpələr evi ilə üzbəüz yaşadığı evin pəncərəsindən orada baş verən oğurluq hallarını videoya çəkib. Uşaq evindən aparılan qutu-qutu pamperslər, yeməklər və daha nələr... Hamımızın bildiyi, amma videoğörüntülərlə sübut olunandan sonra bir daha əmin olduğu faktlar. Amma maraqlısı nədir, bilirsizmi? Körpələr Evinin rəhbərliyi bu arqumentlərə qarşılıq Rəqsanənin qızının videoçəkilişləri apardığı evi pritona çevirdiyini, ora hər gün bir kişinin gəldiyini deməsi...

Mən bu azərbaycançı yanaşmanın qarşısında rəsmən şokdayam. Bu ölkədə niyə görə oğru bağıranda hamının bağrı sökülür? Niyə əxlaq-namus anlayışı təkcə iki ayağın arası ilə ölçülür? Kiminsə hardasa özəl həyatını necəsə yaşaması ilə minlərlə yetim uşağın boğazından, əynindən kəsilməsi bir ölçülməlidir?

Amma mən sizi inandırım, o milli mentalitet keşikçilərinin çoxu uşaq evi müdirinin məlum açıqlamasından sonra ittihamın müəllifi Rəqsanənin qızı olduğu üçün fakta ağız büzdülər. "Dinimə söyən də barı müsəlman olaydı..." məntiqi ilə. Halbuki nə fərqi var? Hesab edin ki, onu həmin qızcığaz yox, "Reuters"in fotoqrafı, operatoru çəkib. Önəmli olan fakt deyilmi? Oğurluq varmı? Var? Yetim-yesirin əynindən, boğazından kəsilənlər maşınla haralarasa daşınırmı? Daşınır. Niyə hələ də araşdırma aparılmır, istintaqa start verilməyib? Mən Rəqsanənin qızının guya ki, xoşagəlməz həyat tərzi keçirməsi ilə bağlı fakta malik deyiləm. Görməmişəm, xəbərim yoxdur. Amma oğurluq faktını gözümlə görmüşəm.

O ki qaldı, bu məsələdə jurnalistlərin Rəqsanənin qızına uduzmasına, mən bunu qəbul etmirəm. Doğrudur, bu faktın üstünü jurnalistlər açsa, daha yaxşı olardı. Və bu vaxta qədər ölkə jurnalistləri qalmaqallı nə qədər hadisənin izinə düşüb, nə qədər biabırçılıqları ifşa ediblər. Amma bu, dünyanın hər yerində var. Əlində telefonu olan sıravi vətəndaşlar belə ölkəni sarsıdacaq faktları görəndə çəkir, yayırlar.

İndi dünyanın yarısı araşdırmaçı jurnalistika ilə məşğul olur. Amerikada bir neçə il əvvəl narko-mafiyanın fəaliyyətini belə azyaşlı bir uşağın çəkdiyi video ilə aşkarlamışdılar. Yəni, olaydan çıxış edib, jurnalistləri əzməyə, aşağılamağa gərək yox. Olay varsa, texniki imkanlar artıbsa, bunu kimin çəkməsinin önəmi yox. Önəmli olan faktın özüdür.

Fakt əlahəzrətdir, necə deyərlər. Ondan ötəsi yox. Hətta onu Rəqsanənin qızı çəkib yaysa belə...

# Gədəbəydə "Müsibəti-Fəxrəddin" dramı davam edir - yeni gəlişmələr

## İcra başçısı Ramiz Yediyarov blokadaya aldığı obyektdə Qarabağ qazisinin maşınını girov saxlayır

**Gədəbəyin icra başçısı Ramiz Yediyarov rayonda çalışan sahibkar Fəxrəddin Bağırova qarşı qanunsuzluqlarını davam etdirir. 6 ay əvvəl sahibkarın obyektinin qarşısına 1 maşın daş tökdürən başçı ticarət məkanının qapı-pəncərəsini, darvazasını hördürüb. Ötən müddət ərzində obyektin işi iflic olub, sahibkar Fəxrəddin Bağırov Bakıya gələrək rəsmi qurumlardan dəstək ümidi ilə ayları, günləri sayır.**







10-a yaxın işçi də Gədəbəydə avara-sərgərdan gəzib-dolanır, sahibkarın Bakıdan geri qayıdacağını, iş yerlərinin qapı-pəncərələrinin, darvazalarının açılacağı günü gözləyirlər. Həmin işçilərdən biri də obyektdə sürücü işləyən 2 övlad atası, Qarabağ qazisi Şahin Bağırovdur. Sahibkar Fəxrəddin Bağırovun qardaşı olan Şahin Bağırov da digər işçilər kimi 6 aydır işsizdir, çıxılmaz durumdadır. Maşını icra başçısının qapı-pəncərəsini, darvazasını hördürdüyü obyektdə girova çevrilib. İşçilər obyekt Ramiz Yediyarovun qanunsuz göstərişi ilə blokadaya salınandan sonra hasardan aşmaqla oranı tərk edə bilsələr də, ağır tonnajlı nəqliyyat vasitəsini hasardan bu üzə keçirmək müşkülə çevrilib.

"Yeni Müsavat"ın 23 noyabr 2017-ci il tarixli sayında "Gədəbəyin icra başçısı "Müsibəti-Fəxrəddin"i yenidən yazır ..." sərlöhvəli reportajda (http://musavat.com/news/gedebeyin-icra-bascisi-musibeti-fexreddin-i-yeniden-yazir-reportaj-fotolar-video_485354.html ttp://musavat.com/news/gedebeyin-icra-bascisi-musibeti-fexreddin-i-yeniden-yazir-reportaj-fotolar-video_485354.html) bu haqda geniş söhbət açmışdıq. Hazırda vəziyyət dəyişməyib. Sahibkarın qardaşı Şahin Bağırov da çıxılmaz durum barəsində dövlət rəhbərliyinə məktub yazıb. Qarabağ müharibəsi veteranı Şahin Bağırovun prezident, ali baş komandan İlham Əliyevə, birinci vitse-prezident Mehriban xanım Əliyevaya, baş nazir Novruz Məmmədova, müdafiə naziri Zakir Həsənova, baş prokuror Zakir Qaralova, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyevə, daxili işlər naziri Ramil Usubova açıq müraciətində deyilir:

- Hörmətli cənablar, hörmətli Mehriban xanım.

1992-ci il mayın 6-da könüllü olaraq Milli Orduya yazılmışam. Sapyor - minabasdıran olmuşam. Gədəbəy cəbhəsində gedən bütün döyüşlərdə iştirak etmişəm. 1993-cü ildə Qalankənddə, yeni yolun üstündə 2 erməni əsgəri öldürmüşəm. 1994-cü ildə kəşfiyyatın qrupunun tərkibində Krasnoselskdən Berd rayonuna gedən asfalt yola 2 ədəd tank əleyhinə - "TEEM-57" mina, ondan 15 metr aralı 4 ədəd "Ozem-72" markalı piyada əleyhinə mina basdırmışam. Həmin minalara 10-dan çox erməni düşüb. Göyəlli kəndində gedən döyüşlərdə 1 erməni əsgərini öldürüb meyitini gətirmişəm. Həmin dığanın qolunda "A Cidois" yazılmışdı. 1994-cü il avqustun 5-6-da Sümüklü postu uğrunda gedən döyüşlərdə həlak olmuş Hüseynov Aqil Baxşəli oğlunun meyitini erməni postunun yanından mən gətirmişəm. Sərhəd boyu 2 mindən çox mina basdırmışam.

Hörmətli cənablar, hörmətli Mehriban xanım.

Bunlar mənim müharibədə iştirakımdan yadımda qalanlardı. İndiyədək bu barədə danışmamışam. Düşünmüşəm ki, nə eləmişəm, vətənim, millətim üçün eləmişəm. Heç kimə buna görə minnət qoymamalıyam və qoymuram da. Amma bu gün başıma gələnlər məni vadar edir ki, döyüş yolum ilə bağlı belə açıq yazım.

Mən ona görəmi döyüşdüm ki, bu gün Gədəbəyin icra başçısı Ramiz Yediyarov gəlib mənə qoruduğum torpaqda yaşamağa imkan verməsin? Mənim yeganə dolanışıq yerim olan avtomobilimi qardaşım Fəxrəddin Bağırovun obyektində qoyub qapısını hördürsün? Bu adamın mən döyüşəndə 25 yaşı olub. Amma kolxozun fermasında müharibədən gizlənib, fərarilik edib. Mənim nə evim var, nə torpağım var, 6 aydır ki, artıq işyən, üstəlik müharibədən yayınan 500 nəfərdən artıq adama saxta veteranlıq verən bu adamın həqiqi müharibə iştirakçısı kimi mənə və ailəmə qarşı törətdiyi qanunsuzluqlara dözə bilmirəm. Cənab prezident, siz keçirdiyiniz iclasda dediniz məmurların vətəndaşı sıxışdırması yolverilməzdir. Bir icra başçısı isə müharibə iştirakçısının çörəyini kəsməkdən sanki zövq alır. Bu, sizin siyasətinizə qarşı çıxmaqdır. Mən döyüşlərdə sağlamlığımı da itirmişəm. Başağrısındsan, bel ağrısından gecələr yatmıram.

> "Mən ona görəmi döyüşdüm ki, bu gün Gədəbəyin icra başçısı gəlib mənə qoruduğum torpaqda yaşamağa imkan verməsin?"

yerim də yoxdur! Müharibə ucbatından ali təhsil də almamışam. 9 və 10 yaşında körpə uşaqlarım var. Mən ona görəmi döyüşmüşəm ki, Yediyarov kimi fərari və rüşvətxor məmur gəlib mənim bu 2 uşağıma çörək qazanmağa imkan verməsin? 6 aydır mənim maşınım girovluqdadır. Əkin mövsümüdür. Mən toxumu necə daşıyım? Ramiz Yediyarov bu gün rayonun yarısına saxta veteranlıq verdirib hər birindən min manat rüşvət alır. O adamların çoxunu şəxsən tanıyıram, müharibə vaxtı Rusiyada alver edirdilər. Soruşsunlar görək mənim dediyim bu döyüşlərin hansında iştirak ediblər?

Özü müharibəyə getmədan gecələr yatmıram. Bir tərəfdən də Yediyrovun bu qanunsuzluqları məni əsəbiləşdirir. Bu haqsızlığa son qoyulmasını xahiş edirəm.

Vətəni Yediyarovun kef içində böyüyən oğlu müdafiə etməyəcək. O, öz atası kimi qaçıb gizlənəcək. Vətəni mənim kirayədə, şoferliklə, əziyyətlə böyütdüyüm oğlanlarım müdafiə edəcək. Sizdən xahiş edirəm, mənim vəziyyətimlə maraqlanın. Bir vətəndaş, bir keçmiş döyüşçü kimi sizdən xahiş edirəm - Yediyarov haqda tədbir görün. Qardaşımın obyektinin qapısının açılmasına və mənim avtomobilimin oradan çıxarılmasına yardımçı olun".

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"



# Ermənilər üçün xilas formulu - Azərbaycan və Türkiyədən təhlükəsizlik qarantı alınmayınca...

## Sülh danışıqlarının da, işğalçı ölkənin də taleyi Bakı və Ankara ilə anlaşmaya birbaşa bağlıdır; **ukraynalı tanınmış politoloq:** "Ermənistan Dağlıq Qarabağ probleminin girovudur..."

**Bu həftə Ermənistanda daxili siyasi böhranın aradan qalxıb-qalxmayacağına əhəmiyyətli dərəcədə aydınlıq gələcək. Mayın 8-də parlamentdə ikinci cəhddə yeni baş nazir seçkisinin nəticələrindən bəlli olacaq ki, işğalçı ölkə ilə aparılan Qarabağ münaqişəsinə dair danışıqların aqibəti necə olacaq, sülh prosesi bir az da dalana girəcək, müharibə riski artacaq, yoxsa danışıqları davam etdirmək üçün hansısa yeni, ümidverici mərhələ başlayacaq, impuls yaranacaq?**




Sözsüz ki, çox şey konfliktin həllinə ən güclü təsirini saxlayan Rusiyanın baş verənlərə reaksiyasından, daha dəqiqi, inqilabi hərəkata və onun lideri Nikol Paşiyana etimad dərəcəsindən asılı olacaq. Belə görünür ki, Moskva bu xüsusda daha çox aktiv gözləmə mövqeyi tutub.

*****

"Ermənistan asan olmayan siyasi dönəmi yaşayır. Hesab edirəm ki, Ermənistandakı siyasi sahədə vəziyyətin sabitləşməsini gözləmək lazımdır". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova son brifinqdə Azərbaycan və Ermənistandakı seçkilərdən sonra Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesinin intensivləşməsi imkanının olub-olmaması ilə bağlı suala cavabında bildirib.

"Ümid edirik ki, xalq, siyasi qüvvələr Konstitusiya çərçivəsində və hüquqi müstəvidə rəhbər orqanların tərkibini müəyyən edəcəklər. Bundan sonra, mənə elə gəlir ki, Dağlıq Qarabağ problemi ilə bağlı danışıqlar aparmaq imkanı olacaq. Biz öz tərəfimizdən deyə bilərəm ki, Rusiya bu problemin həlli ilə bağlı ardıcıl mövqe tutub. Ona görə də, bundan sonra da münaqişə tərəflərinə yardım edəcəyik. Bir daha deyirəm ki, Ermənistanda siyasi vəziyyətin sabitləşməsini gözləmək lazımdır".

*****

"Ermənistan təkcə avtoritar rejimin yox, həm də Qarabağın girovudur. İlk növbədə isə Dağlıq Qarabağ probleminin girovudur". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə erməni nəşrinə açıqlamasında tanınmış ukraynalı politoloq Vitali Portnikov deyib.

"Ermənistan - tranzit dövlət kimi unikal siyasi və iqtisadi imkanlara malikdir. O, Qafqazda mühüm mərkəz və Ermənistan erməniləri ilə diaspor arasında birləşdirici halqadır. Ancaq bu imkanların reallaşması üçün ilk növbədə Dağlıq Qarabağ probleminin həllini tapmaq lazımdır", - deyə o qeyd edib.

Ekspert bildirib ki, Dağlıq Qarabağ konflikti bu və ya başqa formada nizamlanmayınca, Azərbaycan və Türkiyə ilə sərhədlər açılmayınca, Ermənistan özünün bütün qonşularından təhlükəsizlik zəmanəti almayınca, onun durumu əhəmiyyətli şəkildə yaxşılaşmayacaq: "Əgər resurslar yoxdursa, həyatı yaxşılaşdırmaq mümkün deyil. Bu resurslar isə Ermənistanın geostrateji vəziyyətinin əsasında durur və heç bir Rusiya hərbi bazası bu resursları əvəzləyə bilməz. Bunu səmimi şəkildə etiraf eləmək və ölkənin yeni rəhbərliyinə sual vermək lazımdır. Əgər yeni rəhbərlik Qarabağ məsələsində status-kvonu saxlamaq niyyətindədirsə, demək, avtomatik şəkildə erməni yoxsulluğu, çıxılmazlıq və emiqrasiya planında da status-kvonu saxlayacaq".

Portnikovun sözlərinə görə, dəqiqliklə söyləmək olar ki, Ermənistanda etiraz hərəkatının geosiyasi çalara malik olmadığını söyləyənlər özlərini tələyə salıblar: "Çünki erməni etirazları mahiyyət etibarilə Vladimir Putinin postsovet məkanında müəyyən elədiyi oyun qaydalarına qarşıdır. Və əgər Paşinyan hakimiyyətə gələndən sonra Serj Sərkisyanın kursunu davam etdirsə, o zaman o, mütləq yeni etiraz dalğası və onun yeni lideri ilə üzləşəcək, hansı ki, artıq onun əleyhinə olacaq".

Politoloqa görə, oyun qaydaları hakim klanların əvəzolunmazlığı ilə bağlıdır. "Həmin qaydalara görə, hakimiyyət məsələsi küçələrdə deyil, kabinetlərdə həll olunur. Ona görə də səmimi şəkildə demək lazımdır ki, bu günlər küçələrə çıxan hər bir erməni Serj Sərkisyana yox, konkret olaraq Rusiya siyasi rejiminə və şəxsən Vladimir Putinə etiraz edir. Nikol Paşinyandan tutmuş, təqaüdçüyə və tələbəyə kimi, küçəyə çıxan hər kəs - şəxsən Vladimir Putinin və Rusiya rejimini dəstəkləyən hər bir Rusiya vətəndaşının şəxsi düşmənidir", - deyə o qeyd edib.

Ukraynalı analitik Ermənistandakı kütləvi etiraz hərəkatı ilə bağlı xəbərdarlıq da edib: "Mən başa düşürəm ki, cənab Paşinyan siyasətçidir. Onu da başa düşürəm ki, o, niyə belə bəyanatlar verir (Paşinyan iddia edir ki, onun hərəkatı geosiyasi çalara malik deyil və xarici siyasət oriyentasiyası baxımından qarşısına vəzifə qoymur - red.). Ancaq məndə sual yaranır: o, ölkəni necə idarə eləməyə hazırlaşır? Əgər onun yeganə məqsədi baş nazir olmaq və sələfləri Serj Sərkisyan və Robert Köçəryan kimi işləməkdirsə, o zaman məğlubiyyətə məhkumdur. Bu halda onun siyasi mübarizəsinin mənası mənə aydın deyil".

*****

Necə deyərlər, bu yerdə əslində əlavə şərhə ehtiyac qalmır. Yalnız bundan savayı ki, ukraynalı ekspertin də xüsusi vurğuladığı kimi, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Ermənistanın xilası Rusiya ilə bağlı deyil, tam əksinə, əsas qonşular - Türkiyə və Azərbaycanla dil tapmaqdan, anlaşmadan və bunun nəticəsi kimi Qarabağ məsələsinin həlində ciddi dönüşə nail olmaqdan keçir.

Yəni erməni xalqının xoşbəxtliyi, rifaha qovuşması heç kimin deyil, öz əlindədir. Bundan ötrü çox şey də tələb olunmur. Qonşu ölkələrə qarşı əsassız torpaq və saxta soyqırım iddialarından əl çəkib, onların ərazi bütövlüyünü tanımaq, qlobal güclərin, ilk növbədə də Rusiyanın əlində regionu qarışdırmaq üçün maşa missiyasını daşımaqdan imtina eləmək.

Ermənilər nəhayət, anlamadırlar ki, Kreml onlara heç vaxt xoşbəxtlik gətirməyəcək. Əsas da o səbəbə ki, Rusiyanı nəinki ermənilərin, ümumiyyətlə, bölgə xalqlarının rifahı və xoşbəxtliyi heç vaxt maraqlandırmayıb, Moskva yalnız I Pyotr dövründən əsası qoyulan "Parçala, hökm sür" siyasətini davam etdirir. Nə vaxt ki, bədbəxt erməni bu acı gerçəyi dərk edib rusun maşası olmaqdan imtina edəcək, o gündən də onun xoşbəxtliyi başlayacaq...



## "Heç zaman bizim olmayan torpaqları tələb etməyə son qoymaq lazımdır" - erməni tarixçi və blogger

**Erməni tarixçi, ədəbiyyatşünas və blogger Filip Ekozyans öz Facebook səhifəsində erməni xalqına video müraciət ünvanlayıb. Ekozyans öz müraciətində Ermənistanda bir liderin başqa bir lideri əvəz etməsinin faydasız bir əməl olduğunu bildirib (oxu.az). Onun sözlərinə görə, "Marmot günü" filmində olduğu kimi, ölkədə heç nə dəyişməyəcək, hər şey təkrarlanacaq.**

Tarixçi əmin edir ki, Ermənistanın çiçəklənməsi üçün yeganə yol, Türkiyə və Azərbaycanla qardaş münasibətlərin bərpa olunmasıdır. "Ermənistanda problemlər nə inqilab, nə də əks-inqilab yolu ilə həllini tapa bilməz, tezliklə ermənilər bunun şahidi olacaq. Dəyişən yalnız adlar olacaq, buna görə də sonra erməni xalqı məyusluğa qapılacaq. Xaricə köçə bilməyən, qapalı məkanda, qəfəsdə saxlanılan ermənilər, hakimiyyətə kimin gələcəyindən asılı olmayaraq elə bu qəfəsin içində qalacaqlar. Heç zaman ermənilərin olmadığı torpaqları tələb etməyə son qoymaq lazımdır. Bizim buna heç bir haqqımız yoxdur - nə hüquqi, nə də əxlaqi. Həmçinin türklərin cinayətkar və zülmkar olduğunu bütün dünyaya car çəkməyə son qoymaq lazımdır. 1915-ci ildə baş vermiş hadisələri soyqırım adlandırmaq olmaz. Türk xalqını bunda ittiham etmək, sadəcə, səfehlikdir".

YENİ MÜSAVAT
N 99 (6988) 7 may 2018

# "S-400" raketləri Türkiyənin Qərblə münasibətlərini "vura" bilər

## Ekspertlər problemin dərinləşəcəyini proqnozlaşdırırlar



**Ötən həftənin ciddi hadisələrindən biri də ABŞ administrasiyasının Türkiyənin Rusiyadan "S-400" raket sistemləri almasına kəskin etiraz etməsi oldu. ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Xizer Nauert açıqlamasında bildirib ki, ABŞ Türkiyənin S-400 raketi almasından çox narahatdır: "NATO ilə əldə olunan razılığa əsasən, Türkiyə yalnız alyans ölkələrinin arsenalındakı silaha uyğun texnika əldə etməlidir. Hesab edirik ki, bu məsələdə uyğunsuzluq var".**

Qeyd edək ki, "S-400" məsələsi artıq xeyli vaxtdır ABŞ-la Türkiyə arasında gərginlik yaratmaqdadır. Ötən ilin iyul ayında ABŞ Baş Qərargah rəisi Cozef Danford da Türkiyənin Rusiyadan "S-400" raket sistemləri almaq istəyini şərh edərkən narahatlıqlarını və narazılıqlarını bildirmişdi. ABŞ generalı Türkiyənin bu istəyinin reallaşacağı halda ABŞ üçün narahatlıq və iki ölkə arasında problemlər yaradacağını bəyan etmişdi.

Bəs "S-400" məsələsi ABŞ-Türkiyə münasibətlərini daha da gərginləşdirə bilərmi, Türkiyənin "S-400"lərlə silahlanması ABŞ-ı narahat etməsinin arxasında hansı məqamlar dayanır?

Politoloq Əhəd Məmmədli "Yeni Müsavat"a bildirdi ki, Türkiyə-ABŞ münasibətlərində son illərdir müşahidə olunan gərginliyi "S-400" məsələsi bir qədər dərinləşdirir və dərinləşdirəcək: "Münasibətlərdə kifayət qədər gərginliklər var. Amma bu gərginliklıyin günahkarı ABŞ-dır. ABŞ əgər istəmirsə Türkiyə Rusiyadan silah alsın, 5000 həcmində TIR-la, 2000 həcmində isə yük təyarəsi ilə PKK-PYD-YPG-yə təmənnasız silah sursat verməməlidir, Fətullah Güləni təhvil verməlidir, Türkiyəni qarışdırmaqda əl çəkməlidir. Bütün bunlar davam edəcəyi təqdirdə təbii Türkiyə-ABŞ münasibətləri gərginləşməkdə davam edəcək və Türkiyə də Rusiyadan hətta Çindən də silah alacaq paraleldə özü də yeni silahlar üstündə işləyəcək necə ki, işləyir. ABŞ Türkiyəni yanında görmək istəyirsə, özü də Türkiyənin yanında olmalıdır. Artıq Türkiyəyə kiçik tərəfdaş deyil, tam bərabər hüquqlu tərəfdaş gözü ilə baxmağa ABŞ öyrənməlidir. Amerika anlamalıdır ki, Türkiyə ilə əmr tonu ilə danışmaq vaxtları geridə qalıb. Yeni bərabər güclü iddialı Türkiyə ilə, ABŞ yenidən münasibətlər, əlaqələr qurmalıdır. Bunun baş verməsi üçün də ilk növbədə Amerika PKK, YPG və PYD terror təşkilatları ilə bütün əlaqələri rəsmi və qeyri-rəsmi kəsməlidir. Əks halda münasibətlər daha da pisləşəcək".

Politoloq Qabil Hüseynli isə bildirdi ki, ABŞ-ın narahatlığı NATO-nun daxili intizam qaydalarından və NATO standartlarından qaynaqlanır: "Bu saat NATO ilə Rusiya qarşı-qarşıya dayanıb. Belə bir məqamda NATO ölkələrindən birinin Rusiyadan NATO üçün təhlükəli olan silahlardan birini almasını ABŞ NATO prinsiplərinə zidd sayır. Digər vacib bir məqam isə texniki məsələdir. NATO-nun radar sistemləri, bu sistemlərin standartları, bütövlükdə hava hücumundan müdafiə sistemləri bir çox komponentlərdən formalaşıb. Onun içərisində bir çoxu sirr xarakteri daşıyır. ABŞ bu məsələdə əsas rol oynayır. Çünki hava hücumundan müdafiə sistemləri əsasən ABŞ tərəfindən qurulur. ABŞ tərəfini narahat edən məqam təhlükəni aşkarlayan NATO-nun vahid radar sistemlərinin Rusiyanın oxşar sistemləri ilə eyni parametrlərdə işləməməsidir. Bu, tamamilə yeni bir sistemin yaradılmasını zəruri edir. Bu isə NATO üçün arzuedilməzdir. Hesab edilir ki, NATO sisteminə uyğunsuzluq yaradan bu raket sistemlərinin alınması gələcəkdə ciddi problemlərə səbəb ola bilər. Bu problemlərin başında isə NATO üzvlüyündən xaric etmə məsələsi də durur. Yəni "S-400" problemi bu qədər kəskinləşə bilər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

**Martın 18-də növbəti dəfə Rusiya prezidenti seçilmiş Vladimir Putinin bu gün andiçmə mərasimi keçiriləcək. Hələ andiçmə gününün tarixi bəlli olduqdan sonra məlumatlar yayılmışdı ki, Rusiya müxalifətinin lideri kimi tanınan Aleksey Navalnı inauqurasiya gününə az qalmış, yəni mayın 5-dən etibarən Rusiyanın müxtəlif şəhərlərində aksiyalar təşkil edəcək. Deyildiyi kimi də oldu. Navalnı tərəfdarları Rusiyanın onlarla şəhərində icazəsiz aksiya keçirdilər.**



# Bu gün Putinin andiçmə mərasimidir

## İnauqurasiya problemli keçə bilər; Rusiya prezidenti kardinal kadr dəyişikliyinə gedəcəkmi?

## **Politoloq:** "Putin Lavrovla yolları ayıra bilər..."

Rəsmi məlumatlara əsasən, təkcə Moskvadakı mitinqdə 15 min nəfər iştirak edib. Etiraz edənlər "Putinsiz Rusiya" və "Çara son" şüarları səsləndiriblər. Məlumatlara görə, Rusiyada keçirilən razılaşdırılmamış aksiyalarda ölkənin 21 şəhərində olmaqla 1348 nəfər saxlanılıb. Daxili İşlər Nazirliyinin Baş İdarəsindən bildirilib ki, saxlanılanlar məsuliyyətə cəlb ediləcək. Onların arasında Aleksey Navalnı da var. Ekspertlər bu aksiyaları Navalnı populyarlığını itirməmək üçün atdığı addım kimi də xarakterizə edirlər.

"Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirdi ki, indiki şəraitdə belə mitinqlərin keçirilməsinə nail olmaq böyük işdir: "Demək, ölkədə protest elektoratının tərkibi genişlənir. İnsanlar hakimiyyətdə baş verənlərə dəqiq qiymət verməyi bacarır. Çünki aksiyaların əsas şüarı "biz çar istəmirik" şüarıdır. Yəni ruslar artıq başa düşürlər ki, ölkədə avtoritar, totalitar rejim o səviyyəyə çatıb ki, Putinin səlahiyyətləri çarın səlahiyyətləri səviyyəsinə qalxıb. Üstəlik də onun 4-cü müddətə prezident seçilməsi faktiki olaraq demokratik prosedurları ayaqlar altına alıb. Eyni zamanda nəzərə alaq ki, Rusiya iqtisadi baxımdan da ağır vəziyyətdədir. Ölkədə milli məhsulun artımı yoxdur və dərin durğunluq hökm sürür. Üstəgəl, rublun inflyasiyası və əhalinin də maddi rifah halı getdikcə pisləşir. Belə bir şəraitdə hələ ki, Navalnı iri şəhərlərdəki insanları küçələrə çıxara bilir. Onu artıq həbs edib, proseslərə təsir göstərmək imkanlarından məhrum ediblər. Bu saat Rusiyanın kütləvi informasiya vasitələrində aksiyaçılara və xüsusilə də Navalniyə qarşı çox əcaib ittihamlar irəli sürülür. Onu az qala, hər şeydə günahkar bilirlər. Lakin bütün bunlara baxmayaraq Rusiyada vəziyyət, əhalinin əhvalı, məncə, getdikcə daha böhranlı həddə çatacaq. Çünki ölkənin iqtisadi inkişafının perspektivləri o qədər də ümidverici görünmür. Bundan əlavə, iri şirkətlərin ölkədən çıxıb getməsi və Qərbin tətbiq etdiyi sanksiya siyasəti Rusiyadan maliyyə axınının da sürətlənməsinə gətirib çıxarıb. Bir çox ruslar özünün ölkədəki əmlakını və pulunu inflyasiyadan qorumaq üçün xaricə getməyə daha çox üstünlük verirlər. Üstəlik də Rusiyanı yeni sanksiyalar gözləyir ki, bu da daha çox adamları və iqtisadiyyatın bir neçə sahəsini bürüyə bilər".

Politoloq bildirdi ki, artıq insanlar əllərində olanları qoruyub saxlamağa və sanksiya tədbirlərindən xilas olmağa çalışırlar: "Bu gün Rusiya cəmiyyətinin ruhi-psixoloji vəziyyəti həddindən artıq gərgindir. Millətlərarası münasibətlər də demək olar ki, çox ağır dövrünü yaşayır. Putinin sərt mərkəzləşdirmə siyasəti yeritməsi, yerlərə verilən özünüidarə hüquqlarının onların əlindən alınması və xüsusilə də milli ruhun yüksək olduğu Tatarıstan, Başqırdıstan və bu qəbildən olan müxtəlif respublikalarda prezident üsul idarəsinin ləğv edilməsi ruslarla digər millətlər arasındakı münasibətlərə kölgə salıb. Hətta bunlar qarşıdurmaya da səbəb olur. Milli azlıqlar sözü Rusiyadakı gerçəkliyi tam əks etdirə bilmir. Tatarıstan kimi Rusiya ölçüləri ilə nəhəng bir muxtar respublikanı milli azlıqlara aid etmək ciddi qəbahət sayıla bilər. Rusiyada 3 milyondan çox tatar var və onlar ölkənin hər yerinə yayılıblar. Tatarlar həm mühüm dövlət postlarını tutublar, həm də elmin, texnikanın inkişafına ciddi töhfələr veriblər. Tatarıstana Yeltsin dövründə verilmiş imtiyazların ləğvi, tatar xalqının milli hissiyyatına ciddi təsir edir. Tatar millətçiləri istənilən vaxt ayağa qalxmağa hazırdırlar. Düzdür, hələ ki, proseslər Navalnının təsiri altında gedir. Ancaq zaman gələcək ki, proseslərə milli azlıqlar dediyimiz qruplar da qoşulacaq. Zənnimcə, belə olarsa proseslər idarəedilməz vəziyyətə gəlib çıxa bilər. Navalnının məqsədi Putini və onun keçirdiyi seçkini ifşa etməkdir. Çünki yayılan məlumatlara görə, seçkidə saxtakarlıqlar, karusellər, hətta ölülərin də səsverməsi halına rast gəlinib. Bütün bunlar onu göstərir ki, seçkilər ciddi şəkildə saxtalaşdırılıb və Putin də elan edilən səsi toplaya bilməyib. Əhalinin ayağa qaldırılmasının səbəbi də birincisi Putinin səlahiyyətlərinin artmasına etirazdır, ikincisi də saxta seçkinin legitimliyini tanımamaqdır. Navalnı və onun tərəfdarları hesab edirlər ki, prezident seçkiləri baş tutmayıb. Bu, çox ciddi ittihamdır və Qərb siyasi dairələri Navalnı və onun tərəfdarlarının dövriyyəyə buraxdığı bu ittihamları real qəbul edərək, Rusiya əleyhinə aparılan təbliğatı daha da şiddətləndirir".

Politoloq hesab edir ki, bu aksiyalar Rusiya tərəfindən yatırılacaq: "Həbslər, cəza tədbirləri, ciddi ordu müdaxiləsi və hətta xüsusi təyinatlıların da əhalinin çıxışlarının yatırılmasına cəlbi onu göstərir ki, bu proses, sadəcə olaraq, məşq xarakteri daşıyır. Hazırda Lavrovun işdən azad ediləcəyi məsələsi ilə bağlı da çoxlu dezinformasiyalar yayılıb. Rusiyanın mərkəzi hakimiyyət orqanları özləri belə informasiyalar yayıb, istiqamətləndirirlər. Deyirlər ki, Şoyqu daha yüksək vəzifəyə təyin olunacaq, Lavrov isə birdəfəlik uzaqlaşdırılır. Zənnimcə bu, Putin tərəfindən istiqamətləndirilən əks-təbliğat prosesidir. Ancaq Lavrovun getməsi məsələsi bir az ciddi xarakter daşıyır. Çünki Lavrovla bağlı məsələlərdə həm Azərbaycan, həm Gürcüstan, hətta Qazaxıstanın özü də ciddi etirazlarda bulunublar. Etirazlar kifayət qədər miqyaslı xarakter daşıyır. Üstəlik də ermənilərin son hərəkətləri göstərdi ki, Lavrov bir sıra məsələləri proqnozlaşdırmaqda ciddi yanlışlıqlara yol verib. O, yalnız məsələnin üzdə olan tərəflərinə diqqət edir. Hesab edirəm ki, Putin hakimiyyətini möhkəmləndirmək üçün Lavrovu mütləq vəzifədən azad etməlidir. Bu ehtimal, məncə, çox böyükdür. Ancaq Lavrov məsələsi də Putin hakimiyyətini xilas etməyəcək. Putinin avtoritar hakimiyyətinə şans qazandırmayacaq. Lavrov kimi millətlərarası münasibətləri körükləyən adamın belə vəzifədə olması həm Azərbaycan üçün, həm də Rusiyanın strateji maraqları üçün arzu edilən deyil".

❑ **Əli Rəis,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (6988) 7 may 2018

# İlan, əqrəb sancmaları mövsümü gəldi

## Bu qaydalara əməl eləmək həyatınızı xilas edə bilər!

**Yay mövsümünün gəlişi ilə əlaqədar əqrəb və ilan sancmaları artmağa başlayıb. Respublika Toksikologiya Mərkəzinin rəhbəri Azər Maqsudov mətbuata açıqlamasında qeyd edib ki, son 10 gündə mərkəzə ilan sancması diaqnozu ilə 3 nəfər daxil olub. Hər 3 hadisə Bakı kəndlərində qeydə alınıb. Mərkəz rəhbərinin sözlərinə görə, xəstələrin vəziyyəti orta-ağırdır.**

Qeyd etdiyimiz kimi, hər il bu mövsümdə ilan və əqrəblərin aktivləşməsi müşahidə olunur. Ekpsertlər bildirir ki, xüsusən də Bakı kəndlərində, Qobustan qəsəbəsində, Hacıqabul, Şirvan, Şəki və Qəbələ bölgələrində müşahidə olunan bu aktivlik təxminən martın ayının sonlarından başlayaraq, noyabr ayınadək davam edir. Ehtiyatsızlıq, bəzən də təsadüfi hallar nəticəsində insanlar bu cür sürünən və ya zəhərli həşəratların hücumlarına məruz qalır. Çox təəssüf ki, bəzi hallarda bu cür olaylar faciə ilə nəticələnir.

Bəs ilan və əqrəb, arı sancmalarından necə qorunmalı?

Ümumiyyətlə Azərbaycanda 28 ilan növü vardır ki, onların da yalnız 7 növü zəhərlidir. Zəhərli ilanların isə hamısı gürzə növünə aiddir. Ekspertlər qeyd edir ki, onların zəhəri olduqca təhlükəlidir. Bu növ ilanları vurduğu yaradan müəyyən etmək olur. Məsələn, əgər ilan vuran yerdə deşik varsa, deməli zəhərli ilan sancıb. Çünki zəhərli ilanlarda iki zəhər dişi olur. Həmin dişlərinin də içində deşik olur. Digər ilanların sancdığı yerdə iki diş izi olmur. Məhz bunun vasitəsi ilə insanı zəhərli və ya zəhərsiz ilan sancdığı müəyyən edilir.

Toksiqoloqlar qeyd edir ki, ölkəmizdə ən təhlükəli zəhərli ilan Şahmar ilandır. Bu ilanın zəhəri o qədər güclü olur ki, hətta digər ilanların zəhərinə qarşı olan zərdab belə kömək edə bilmir. İlan zəhəri qanın laxtalanması təsir eləməklə yerli ödem, nekrotik təsir yaradır. Ona görə də ilan sancmasından artıq bir neçə dəqiqə sonra insan bədənində zəhərlənmə başlayır. Bəzən isə ilan sancması ilə qarşılaşan insana düzgün olmayan türkəçarə tədbirlər görülməsi onun vəziyyətinin ağırlaşmasına, hətta ölümünə səbəb olur. Əsasən də rayon və kəndlərdə ilan sancan ətrafa jqut qoyulur və yaxud yaralı yeri kəsib, qanı sorurlar. Lakin məlum olub ki, nəinki ağızla, hətta xüsusi ekstraktla zəhəri soranda onun yalnız 13 faizini çıxarmaq mümkündür.

Bundan əlavə, ölkəmizdə zəhərli əqrəblər, hörümçəklər də var. Ekspertlər bildirir ki, Azərbaycanda daha çox sarı əqrəblər olur ki, onların da zəhəri çox zəifdir. Hələ ki, əqrəb sancmasından dünyasını dəyişən olmayıb. Lakin son 10 ildə ölkəmizə Orta Asiyadan çox təhlükəli və zəhərli, el arasında "qara qurd" adlanan zəhərli hörümçəklərin gəldiyi bildirilir. Məlumata görə, onların zəhəri gürzəninkindən bir neçə dəfə güclüdür. Hörümçək o qədər balacadır ki, heç bəzən onun sancdığını da hiss etmək olmur. Bu həşəratın zəhəri neyrotoksik təsirli olduğundan, həmin nahiyədə şiddətli ağrılar başlayır. Hətta narkotik maddələr belə o ağrıları keyləşdirə bilmir. Bu hörümçək 1,5 mm ölçüdə olur və belində 4 qırmızı nöqtə var. Həkimlər xəbərdarlıq edərək bildirirlər ki, belə hörümçəklə qarşılaşanda mütləq ondan qorunmağa çalışmaq lazımdır.







İlan və əqrəblərdən necə qorunmağına gəldikdə isə, bu haqda dəfələrlə FHN maarifləndirici xəbərdarlıqlar bəyan edir. Məsələn, bildirilir ki, meşəyə gedərkən uzun şalvar geyinməli, qalın dəri və rezin materialdan olan uzunboğaz çəkmədən istifadə etmək lazımdır. Çünki ilanlar bu materialları dişləyə bilmir. Rast gələnən yuva, hündür otluq və aşmış ağaclardan uzaq durmaq lazımdır. Gedərkən yolu açmaq üçün sıx otluğa əl salmaq olmaz. Bunun üçün mütləq əl ağacından istifadə etmək lazımdır. Qaya parçası və ya ağac kötüyünün üzərinə oturmazdan əvvəl onu diqqətlə nəzərdən keçirmək lazımdır. Əgər meşədə gecələmək planı olarsa, əvvəlcədən toplanan çırpıdan ocaq qalanmalıdır. İlanlar alov və səs-küydən çəkinir. İlanla rastlaşdıqda isə dayanmaq, geriyə çevrilmədən yavaşca uzaqlaşmaq, diqqət cəlb etməmək üçün əfil, kəskin hərəkətlər etməmək lazımdır. Unutmaq olmaz ki, ilan və əqrəb ona toxunmadıqca, insanı sancmır.

Xəbərdarlıqlardan biri də budur ki, ölmüş bilinən ilana belə yaxınlaşmaq olmaz. Çünki bəzən sürünənlər özünü ölmüş kimi göstərə bilir. Zəhərli ilanı zərərsizdən seçmək lazımdır. Belə ki, adətən təhlükəli ilanlar parlaq və əlvan rəngli olur, özlərinə xas fısıltı və şaqqıltı səslər çıxarır.

Əqrəb və hörümçəklərə gəldikdə isə, ekspertlər qeyd edir ki, əqrəbin evə girməməsi üçün qapı və pəncərələri həşərat əleyhinə tor örtüklə təmin etmək lazımdır. Açıq havada istirahət edilərsə, mütləq şəkildə paltar və ayaqqabıları, çadırdakı yataq dəstini nəzartdə saxlamaq, vaxtaşırı onları çırpmaq lazımdır. Qumsallıqda ayaqyalın gəzinməkdən çəkinmək lazımdır. Çünki əqrəblər adətən qumun üst qatında gizlənir.

Yalnız unutmaq olmaz ki, indiki mövsümdə təkcə ilan, əqrəb sancmaları deyil, həm də arı sancmaları da olur. Hətta arı sancmaları da bəzən faciəyə səbəb olur. Məsələn, bu günlərdə Balakən rayonunun Qazma kənd sakini İlqar Əliyev məhz arı sancmasından dünyasını dəyişdi. Əliyev arıçılıq təsərrüfatı ilə məşğul olub, arı onu boyun nahiyəsindən sancıb. Bir həftə əvvəl isə Qax rayon sakini Aqşin Qocayevi arı sancmışdı, nəticədə, arıçı ağır vəziyyətdə xəstəxanaya yerləşdirilmişdi.

Ümumiyyətlə, son aylar arı sancması nəticəsində ağırlaşma və ölümlə bağlı tez-tez məlumatlara rast gəlinir. Ekspertlər qeyd edir ki, arı sancmasına qarşı allergiyası olan insanlarda ölüm riski çox olur. Bunun üçün arı sacması zamanı mütləq şəkildə təcili olaraq həkimə müraciət etmək lazımdır. Əks halda şok yarana, insan həyatını itirə bilər.

Bəs ilan, əqrəb, arı sancması zamanı il olaraq nə etmək lazımdır?

Toksikoloqlar qeyd edir ki, ilanlar adətən insanın ətraflarına, xüsusən də aşağı ətrafında hücum edir. Bu zaman yaralı insanı hərəkətsiz hala gətirib, dişlənmiş yaranı yodla steril etmək və dərhal həkimə çatdırmaq lazımdır. Yaralını həkimə çatdırana qədər ilan sancan ətrafa yaxın oynaqları işlətmək olmaz. Çünki bu, zəhərin bədənə tez yayılmasına kömək edə bilər. Sadəcə həmin ətrafa yüngül, sıxmayan steril sarıq qoymaq olar. Yaranı sorub zəhəri çıxartmaq və ya həmin ətrafı kəsmək, üzərinə qatıq qoymaq məsləhət deyil. Ona görə ki, tez bir vaxtda çirklənmiş yara infeksiyalaşmış yaraya keçir və sonra fəsadlaşmış hal alınır.

Beləliklə, istənilən halda yaralını təcili olaraq xəstəxanaya çatdırmaq lazımdır. Səbəb isə, ilan zəhərinə qarşı zərdab yalnız xəstəxanalarda vurula bilər. Qeyd edək ki, zərdab xüsusi zülal - at qanından hazırlanır.

Əqrəb sancması zamanı isə ekspertlər qeyd edir ki, hadisə baş verən zaman həmin bölgə buz ilə soyudulur. Buz tətbiq edilməsi həm şişməsinə mane olur, həm də damarlarda büzüşmə getdiyi üçün zəhərin qana keçməsi ləngiyir, həm də ağrı azalır. Yaralını bundan sonra dərhal həkimə göndərmək lazımdır. Əqrəb sancmasına qarşı hansısa zərdaba ehtiyac olmur. Sadəcə, lokal anesteziya ilə zəhərlənməyə qarşı müalicə aparılır.

Arı sacmasına gəldikdə isə, bu zaman ilk olaraq yaralı yer yuyulmalıdır. Əgər dərinin üzərindən arının iynəsi görsənirsə, ehtiyatlı şəkildə çıxarılır. Sonra isə dərhal həkimə müraciət etmək lazımdır. Çünki qeyd etdiyimiz kimi, arı sancmasına qarşı allergiyanın olması bəzən faciəyə gətirib çıxara bilir.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**
**Musavat.com**

# Xərçəng xəstəliyi ilə bağlı insanların bilməsi vacib olan faktlar - süd, kofe və...



**Amerika Onkologiya Cəmiyyətinin məlumatlarına görə, hər gün ortalama 1500 insan xərçəng xəstəliyindən dünyasını dəyişir. Araşdırmalara görə, xərçəng xəstəliyinə yoluxmada ilkin ehtimallar fiziki məşqlərin edilməməsi, radiasiyaya məruz qalma, piylənmə, siqaret və çirkli havadır.**

Daha çox qadınlarda rast gəlinən döş xərçənginə kişilərdə də rast gəlmək mümkündür. Döş xərçənginə yoluxan qadınların əksəriyyəti siqaret çəkənlərdir. Cild xərçəngi də bu xəstəliyin ən yayğın növlərindəndir. Tarixdə tək bir səbəbdən qaynaqlanan ən böyük xərçəng xəstəliyi faciəsinə "Çernobil" hadisəsi zamanı rast gəlinib.

Hər bir insanın vücudunda gün ərzində 200-1000 arası xərçəng hüceyrələri yaranır. Lakin sağlam insan vücudundakı immun sistemi bu hüceyrələri məhv edir. Xərçəng hüceyrələri milyon və milyarda çatmadan ortaya çıxmır. Əgər insanın immunitet sistemi düzgün işləmirsə, o zaman bu xəstəliyin ortaya çıxma riski çoxdur. Dünya Sağlamlıq Təşkilatının araşdırmalarına görə, düzgün qidalanmamaq da 70 faiz bu xəstəliyin yaranmasına səbəb olur. Qədərindən artıq istifadə edilən süd, kofe, çay, turşu və şəkər xərçəng xəstəliyinin meydana gəlməsinə səbəb olan qidalardır. Xərçəng xəstəliyinin müalicəsi zamanı xəstələrə tətbiq edilən radio şüa bədəndəki zərərli hüceyrələrlə yanaşı, sağlam hüceyrələri də məhv edir.

Bu səbəbdən də bu xəstəliyin müalicəsi zamanı ürək, ağciyər, qaraciyər və böyrək kimi önəmli orqanlar zərər görə bilir. Xərçəng xəstəliyinə yalnız insanlarda deyil, heyvanlarda da rast gəlinir. Çirkli hava ağciyər ilə yanaşı, sidik kisəsi xərçəngini də yarada bilir. İtaliyada təlim keçən itlər iyləyərək xərçəng xəstəliyini aşkar edə bilirlər. Sidik nümunələrini qoxulayan itlər prostat xərçəngini tapırlar. Təcrübəli itlər bu xüsusda 98 faiz bacarıq nümayiş etdirib.

Bir ədəd siqaretin tərkibində 4800 zəhərli maddə var. Bunlardan 70-i xərçəng xəstəliyinə yol açan kanserogen maddələrdir.

Kasıb ölkələrdə xərçəng xəstəliyi riski daha çoxdur. Xərçəng xəstəliyi yüzdə 5-10 faiz irsi ola bilir. Qadın və ya kişi fərq etməz, evli olan insanların bu xəstəliyə yoluxma riski daha azdır. Lakin yuxarıda sadaladığımız qidalanma, zəhərli maddələr və s. bu kimi amillər də önəm daşıyır. Təmiz və güclü oksigen zərərli hüceyrələri məhv etməyə qadirdir.

Mütəxəssislər insanlara dağlıq, havası təmiz olan ərazilərdə olarkən dərindən və çox nəfəs almaları məsləhət görürlər. Bu günə kimi dünyada 28 milyon insan bu xəstəliyə qalib gəlməyi bacarıb.

❑ **Turan ORUC**

# “Keçmişdən və gələcəkdən xəbər verən insanlar yalançıdır”

**Müxtəlif vaxtlarda xüsusi istedadı olduğunu iddia edən insanlar televiziya ekranlarına çıxarılaraq “istedadlarını” nümayiş etdirir, ruh çağırıb, gələcəkdə olacaqları gördüklərini deyirlər. Bəs islam dini bu haqda nə deyir? Bu tipli insanların reallığından söz açmaq mümkündümü?**

## İlahiyyatçı: “Onların sözünə etibar etmək, sözlərini doğrultmaq olmaz...”

Məsələ ilə bağlı ilahiyyat üzrə fəlsəfə doktoru Əkrəm Həsənov Modern.az-a açıqlamasında bildirib ki, belə bir anlayış yanlışdır: “Çünki biz İslam mənbələrinə baxdıqda görürük ki, qeybi bilmək, yəni hansısa insanın həyatını, keçmişini, gələcəyini bilmək elmi indiyə qədər heç bir şəxsə, hətta peyğəmbərlərə belə verilməyib. Mələklər belə hər hansısa bir şəxsin keçmişi, gələcəyi haqqında heç bir məlumata sahib deyillər. Allah-təala qeybin heç kimi bilmədiyini, yalnız Allahın müəyyən qədər Peyğəmbərə bildirdiyini Qurani-Kərimdə bizə xəbər verib. Hətta Qurani-Kərimdə qeybin yalnız Allaha məxsus olması bildirilir. Heç Peyğəmbər belə tam təfsilatı ilə keçmişi və gələcəyi, yəni qeybi Allahın ona bildirməsindən artıq bilməz. Allah-təala Qurani-Kərimdə buyurur: ”Allah pisi yaxşıdan ayırmaq üçün möminləri sizin indi olduğunuz vəziyyətdə qoyan deyildir. Allah sizə qeybi də bildirən deyildir. Lakin Allah öz peyğəmbərlərindən istədiyi şəxsi seçər (ona qeybdən bəzi şeylər bildirər). Buna görə də Allaha və Onun Peyğəmbərlərinə inanın. Əgər inanıb Allahdan qorxsanız, sizi böyük bir mükafat gözləyir!" (Ali-Imran: 179)".

Müsahibimiz qeyd edib ki, peyğəmbərin və digər peyğəmbərlərin qeybi, yəni kiməsə və nəyəsə aid keçmişi və gələcəyi bilməməsi haqqında Quranda ayələr çoxdur: “Allah-təala buyurur: ”De ki: “Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki, (özüm üçün) daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı yalnız qorxudan və müjdələyənəm!” (əl-Əraf: 188).

Nuh (Ona salam olsun!) demişdir: “Mən sizə demirəm ki, məndə Allahın xəzinələri var. Mən qeybi də bilmirəm. Mən həm də demirəm ki, mən mələyəm. Mən eyni zamanda sizin xor baxdığınız kəslərə (mömin kasıblara) Allahın heç bir xeyir verməyəcəyini də demirəm. Onların ürəklərində olanı hamıdan yaxşı Allah bilir (Əgər mən möminləri qovub bu sözləri desəm), onda şübhəsiz ki, zalimlərdən olacağam” (Hud: 31).

“(Ya Məhəmməd!) De ki: ”Allahdan başqa göylərdə və yerdə olanı, qeybi heç kəs bilməz! Onlar yenidən nə vaxt diriləcəklərini də bilməzlər!" (ən-Nəhl: 65).

“Sonra Süleymana ölüm hökmü verdiyimiz zaman onun öldüyünü onlara (cinlərə) Süleymanın əsasını yeyən ağac qurdu xəbər verdi. O ölmüş halda yerə sərildikdən sonra cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab içində qalmazdılar” (Səba: 14).

“Qeybin açarları Allahın əlindədir. Onları ancaq Allah bilir. Allah həm suda, həm də quruda olanların hamısını bilir. Elə bir düşən yarpaq yoxdur ki, Allah ondan xəbərsiz olsun. Yerin zülmətləri içində elə bir toxum, kainatda elə bir şey yoxdur ki, məhz açıq-aydın kitabda (lövhiməhfuzda) olmasın” (əl-Ənam: 59).



“Müşriklər: ”Barı Peyğəmbərə Rəbbinizdən bir möcüzə nazil ediləydi!" - deyirlər. Onlara belə cavab ver: “Qeyb aləmi ancaq Allaha məxsusdur. Elə isə Allahın əzabını gözləyin. Doğrusu, mən də sizinlə birlikdə gözləyirəm” (Yunus: 20).

“Göylərin və yerin qeybi Allaha məxsusdur. Bütün işlər də axırda Allaha qayıdacaqdır (Ya Məhəm-məd!) Yalnız Ona ibadət et! Yalnız Ona təvəkkül et! Rəbbin nə etdiklərinizdən qafil deyildir!” (Hud: 123).

“Qeybi bilən ancaq Odur! O, qeybi heç kəsə əyan etməz!” (əl-Cinn: 26).

“(Ya Məhəmməd!) De ki: ”Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybini yalnız O bilir. O, hər şeyi necə də gözəl görür, necə də yaxşı eşidir! Onların (Göy və yer əhlinin) Allahdan başqa hamisi yoxdur. O heç kəsi Öz hökmünə şərik etməz!" (əl-Kəhf: 26)"".

Əkrəm Həsənov deyib ki, bütün bu və ya digər Quran ayələrinə baxdıqda keçmişdən və gələcəkdən xəbər verən bütün insanların yalançı olduğunu görürük: “Onların sözünə etibar etmək, sözlərini doğrultmaq olmaz. Bu barədə kifayət qədər hədislər də vardır ki, Allah Rəsulu belə insanların yanına getməyi, onların sözünü təsdiq etməyi qəti olaraq qadağan edib, hətta kahinin, falçının yanına gedənin 40 gün ibadətinin qəbul olunmadığını, böyük günah sahibi olduğunu bildirib. Abdulla ibn Ömərin (Allah ondan və atasından razı olsun!) rəvayətinə görə, Peyğəmbər (s.ə.a.s) deyib: ”Qeybin beş açarı var, onları yalnız Allah bilir. Allahdan başqa sabah nə baş verəcəyini heç kəs bilməz. Ana bətnində nəyin olduğunu Allahdan başqa heç kəs bilməz. Nəfs sabah nə qazanacağını bilməz. Nəfsin hansı torpaqda öləcəyini yalnız Allah bilir. Yağışın nə vaxt yağacağını yalnız Allah bilir. Axirət saatının nə vaxt tamam olacağını yalnız Allah bilir". (Qaynaqlar: Buxari, dörd yerdə: 1. “Istisqa” (Yağış duası), 2/23; 2. “əl-Ənam surəsinin təfsiri”, 5/193; 3. “Tövhid”, 8/165-166; 4. “Loğman” surəsinin təfsiri, 6/21. Əhməd, 2/52. Səhih istinadlı hədisdir). Ümumiyyətlə, bu barədə kifayət qədər dəlil və sübutlar vardır ki, İslam dininə görə, gələcəkdən xəbər vermək anlayışı insanları aldatmaqdan və böyük günah sahibi olmaqdan başqa bir şey deyil".

# “Hakan Foods” MMC təmizlik və halallıq ünvanıdır

## “Kral” markası altında istehsala başlayan şirkətin prioriteti insanları halal və ekoloji təmiz ət məhsulları ilə təmin etməkdir

**Prezident İlham Əliyev tərəfindən həyata keçirilən inkişaf strategiyası nəticəsində ölkəmizdə ət məhsulları istehsalı sektorunun hərtərəfli dəstəklənməsi və onun daha da genişlənməsi üçün əlverişli mühit yaradılıb. Elə bunun məntiqi yekunudur ki, son illər ərzində Azərbaycanda halal, təmiz və ekoloji sağlam ət məhsulları istehsal edilir. Məhz, ölkəmizin ət və ət məhsulları istehsalı sektorunda aparıcı mövqeyə malik olan şirkətlərdən biri də “Hakan Foods”dur.**

Qeyd edək ki, “Hakan Foods” MMC müstəqil təsərrüfat subyekti olaraq Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericilik aktlarına və Nizamnaməyə müvafiq olarq 2001-ci ildən “Kral” markası altında ekoloji təmiz kolbasa, sosiska, servelat, vetçina, mal delikatesi və s. ət məhsulları istehsalına başlayıb.

İstehsal müəssisəsinə media-tur təşkil edən şirkət prezidenti Yavuz Həsənov jurnalistlərlə görüşündə bildirib ki, “Hakan Foods” MMC təmizlik və halallıq ünvanıdır. Məhz, 2001-ci ildən “Kral” markası altında istehsala başlayan şirkətin prioriteti insanları halal və ekoloji təmiz ət məhsulları ilə təmin etməkdir.

Yavuz Həsənov jurnalistlərə son illərin məhsul və istehsalat yenilikləri barədə informasiya verib. “Hakan foods” MMC 1.2 hektar ərazidə yerləşir. Şirkətin kompleksinə ən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya, ət məhsulları istehsalı sahələri, soyuducu anbarlar, daşıma sistemləri daxildir. Ət məhsullarının istehsalı üçün idxal olunan qida məhsullarının bir qismi soyuducu anbarlarda saxlanılır. Şirkətin günlük istehsal gücü 20 tona qədər olan istehsal sahəsi var.

İstehsal olunmuş məhsullar tamamilə halal olduğundan İslam ölkələrinə ixrac edilirdi. Lakin son illərdə İraqda, Suriyada baş verən müharibələr səbəbindən məhsul ixracı böyük risklərlə qarşılaşmaqdadır. Bu gün eyni zamanda “Kral” markası ilə istehsal olunmuş ət məhsullarının dünyanın digər ökələrinə də ixrac olunması prosesi üzərində işlər gedir. Əlbəttə ki, şirkətin əsas məqsədlərindən biri “Made in Azerbaijan” brendi altında dünya bazarına çıxmaqdır. Onu da diqqətə çatdıraq ki, “Kral” ət məhsulları bu günə qədər onlarla beynəlxalq və yerli sərgilərdə iştirak edib, dəfələrlə məhsulların keyfiyyətinə görə diplomlar, medallar və sertifikatlarla təltif edilib.

“Hakan Foods” MMC təxminən 42 adda kolbasa və sosiska məhsulları istehsalı üçün “Halal Qida” Dövlət Standartı üzrə uyğunluq və gigiyenik sertifikatlarına layiq görülüb. İllik istehsal gücü 2500 tona çatan ət emalı sahəsində müxtəlif çeşidlərdə məhsul istehsal edilir. Ən maraqlısı da odur ki, “Kral” markası altında istehsal olunan ət məhsullarına Azərbaycanın qədim və tarixi diyarlarının, şəhərlərinin adları verilib. “Zəngəzur”, “Gümrü”, “Dərələyəz”, “Vedibasar”, “Göyçə” və başqa adlarda istehsal olunan ət məhsulları yüksək keyfiyyəti ilə yanaşı eyni zamanda tarixi torpaqlarımıza bağlılığımızı da təlqin edir.

Yavuz Həsənov bildirib ki, ət məhsullarının istehsalı və saxlanma şəraiti ən müasir standartlara uyğundur. O, hər kəsi əmin edir ki, “Kral” məhsulları tam halaldır və bu ət məhsullarının istehsalında donuz ətindən və mənşəyi bəlli olmayan ətlərdən qəti şəkildə istifadə edilmir. İctimaiyyət də bilsin ki, şirkətin Beyləqan rayonunda fermer təsərrüfatı vardır ki, istehsal üçün ət əsasən oradan tədarük edilir.

Yüksək keyfiyyətə təminat verən amillərdən biri də məhsulların tərkibinə nəzarətdir. Şirkətin ən müasir avadanlıqla təchiz olunmuş Mərkəzi Laboratoriyası var. Laboratoriyada ayrıca həkim mikrobioloq, eləcə də fiziki-kimyəvi müayinə otaqları mövcuddur. Hətta, şirkətin laboratoriyası dövlət nəzarətindədir və xüsusi sertifikat alıb. Yəni, bu laboratoriyada istənilən məhsulun tərkibi və keyfiyyəti yoxlanıla bilər. Bununla yanaşı, dini qaydalarımıza uyğun olaraq kəsilmiş heyvanlar baytarlar tərəfindən yoxlanılır, möhür vurulur, sənədləşdirmə işləri aparılır və sənədlərlə birlikdə ət şirkətə daxil olur. Kolbasanın tərkibinə vurulan qatqıların bir hissəsi isə idxal olunur.

Yavuz Həsənov diqqətə çatdırıb ki, mütəmadi olaraq ictimai yoxlamalar da təşkil edilir, vətəndaşlar, qida sənayesi üzrə təhsil alan tələbələr bütün istehsalat prosesini öz gözləri ilə görə bilirlər. Bildirib ki, şirkətin məqsədi keyfiyyətli məhsullar istehsal edib insanlara çatdırmaqdır. Hazırda “Kral” markası altında istehsal olunan ət məhsulları ilə əlaqədar uduş kampaniyasına da start verilib. Bununla “Hakan foods” şirkəti insanlara sağlam, ekoloji təmiz və halal ət məhsullarını təqdim etməklə, onların qiymətli hədiyyələr əldə etməsinə də şərait yaradır.

Media-tur zamanı bütün istehsal prosesi ilə, o cümlədən məhsulun ilkin hazırlanması, kolbasa və sosislərin istehsalı, bir sözlə, bütün işlərlə yaxından tanış olan jurnalistlər “Kral” markası ilə istehsal olunan məhsullardan da dadıblar. Gəlinən qənaət o olub ki, “Kral” ət məhsullarının istehsalı tamamilə müasir texnika və texnologiya əsasında, təmiz şəraitdə və halal olaraq istehsal olunur. İstehsalın əksər hissəsi isə avtomatlaşdırılıb və əsasən alman texnologiyasından istifadə edilir.

Göründüyü kimi, “Hakan Foods” MMC-nin “Kral” markası altında istehsal etdiyi ət məhsulları tamamilə təmiz, halal və ekoloji təmizdir. Jurnalistlər canlı olaraq “Kral” ət məhsullarının istehsalı prosesini izləyiblər. Bunun əyani şahidi olmaq istəyənlər də ictimai yoxlamalardan istifadə edib halal ət məhsulları istehsalı prosesini gözləri ilə görə bilərlər. Geri qalan məsələ isə “Kral” ət məhsullarını almaq, dadmaq və qiymətli hədiyyələr qazanmaqdır.







# Məşhurları göyə qaldıran və... göydən endirən sitatları

## Dünya tarixinə damğa vuran sözlər; dahilərin yalan çıxan proqnozları

**Məşhur siyasətçilər, elm adamları və tanınmışlar üçün dedikləri bir kəlmə söz bir çox hallarda ya onlara başucalığı gətirir, ya da tarixin tozlu qatlarına yollayır. Bəli, hər deyilən söz, edilən çıxışın bumeranq effekti yaratdığı doğrudur. Onlar hansısa formada onlara geri qayıdır.**

“Yeni Müsavat” bu sitatları ümumiləşdirərək, maraqlı bir gəzişmə hazırlayıb. Kimlər, nə zaman, nələr deyib? İllər öncəki bəzi proqnozlar doğrulubmu, öz gücünü sübuta yetiribmi, yoxsa necə...?

Elm yüz illərdir insanların xəyal belə edə bilməyəcəyi şəkildə irəliləyib və irəliləməyə də davam edir. Xəyal edə bilənlər söylədikləri ilə deyil, etdikləri və nail olduqları uğurlarla özləri haqqında müzakirələr yaradırlar. Bununla paralel, xəyal edə bilməyənlər tarixdə dilə gətirdikləri qalmaqallı, səhv sitatları ilə yadda qalıblar.


Adolf Hitler


Ronald Reyqan


Anton Çexov


Çe Gevara


Fatih Sultan Mehmet

### Xəyal etməkdən əsla vaz keçməyin

“Artıq yeni heç bir şey yoxdur. İcad edilə biləcək hər şey icad edildi”.

**Çarlz Duell** - Amerikan Patent Dairəsi rəhbəri

“Bir az savadı olan hər kəs səsin kablolar vasitəsilə bir yerdən digər yerə çatdırılmayacağını bilir. Və hətta çatdıracaq olsa belə, belə bir cəhdin praktik bir dəyəri olmayacaq”.

“Boston Post” qəzetinin redaktoru, 1865

“Telefon adlanan bu icadın praktik və ciddi bir ünsiyyət vasitəsi halına gələ bilməsi üçün bir çox neqativ tərəfi var. Bu alət, quruluşu etibarilə bizim üçün dəyərsizdir”.

Vestern Union firması, 1878

“Təbiətsevərlər əbəs yerə narahat olurlar. Bir nüvə enerji stansiyasının bir illik artığını, iş stolunuzun siyirməsində belə saxlaya bilərsiniz”.

**Ronald Reyqan** - ABŞ-ın keçmiş prezidenti, 1980

“Atlar hər zaman istifadə ediləcək. Avtomobil isə ancaq keçici bir dəb ola bilər”.

Henry Fordun kredit tələbi ilə bağlı avtomobil sektorunun gələcəyi ilə bağlı ekspert rəyi verən bir bank müdiri, 1903

“Bu mübarizədən atın qalib çıxacağına inanıram. Maşın sadəcə gəlib-keçici bir həvəs olacaq”.

Alman İmperatoru, II. Wilhelm, 1905

“Televizor ən geci altı ay ərzində bazardan silinəcək. İnsanlar hər axşam belə bir qutuya baxmaq istəməzlər”.

**Daryik F.Zanuck** - Twentieth Century Fox’un rəhbəri, 1944

“Dünya bazarlarında kompüterlərdən ən çox 5 ədədinə yer olduğunu düşünürəm”.

Tomas J. Watson - IBM rəhbəri, 1943

“İnsanların evlərində kompüter olması nə deməkdir? Məncə, heç kimin evinə kompüter soxmaq üçün hər hansı keçərli bir səbəbi ola bilməz”.

**Ken Olson** - DEC şirkəti rəhbəri, 1977

“Kompüterlər gələcəkdə 1.5 ton ağırlığında olacaq”.

“Popular Mechanics” Jurnalı, 1949

“Bu elm deyilən şeydən bezdim artıq. Ötən bir neçə ildə əldə etdiklərimiz üçün milyonlar xərclədik və artıq dayandırılmasının vaxtı çatdı”.

**Simon Kameron** - Pensilvaniya ştatı senator, 1861 (Smithsonian İnstitutunun qaynaqlarının kəsilməsi ilə bağlı olaraq)

“Atomların parçalanmasından əldə ediləcək bir enerji qaynağının var ola biləcəyini uman biri, xəyal dünyasında gəzişir deməkdir”. Ernest Rutherford, 1933 (Nüvə Stansiyaları ilə bağlı olaraq)

Bunlar deyilən və tarixin sonrakı inkişaf mərhələsində isə özünü doğrultmayan sözlərdir.

### Siyasətçilərdən incilər...

Amma tarixdə özünə yer tapan siyasətçilərin də məşhur sitatları olub.

Bunlardan biri Amerikanın eks baş katibi, eks prezidentliyə namizədi Hillari Klintondir. Onun da tarixdə özünə yer edən sitatları olub.

“Hesab edirəm ki, mən evdə qala, piroq bişirə və çay içə bilərdim. Amma mən qərar verdim ki, özümü həyat yoldaşım siyasətçi olana qədər məşğul olduğum işdə reallaşdırım”. Bu, Hillari Klintonun 90-cı illərin əvvəllərində dediyi sözlərdir. Həmin vaxt Bill Klinton Arkanzas ştatının qubernatoru idi.

“Əgər mən hansısa qəzetin birinci səhifəsində öz informasiyamın yer almasını istəyirəmsə, bu halda saç düzümümü dəyişməyim kifayətdir”. Bu da birinci ledinin 1995-ci ildə, ölkənin birinci ledisi olan vaxt verdiyi açıqlama idi.

“Mən Billin boynunu qırmaq istəyirdim. Amma mən eyni zamanda həm ərimə nifrət etməli, həm də prezidenti dəstəkləməli idim”. Bunu da Hillari Klinton 90-cı illərdə Bill Klintonun ona xəyanət etdiyi zaman demişdi. Həmin vaxt Bill Klinton prezident idi.

“Ekstremistlərlə onlara inandığı üçün deyil, pərişanlıqdan qoşulan insanları bir-birindən ayırmaq lazımdır”. Bunu da Hillari Klinton 2009-cu ildə, Amerikanın dövlət katibi olan zaman deyib. Həmin vaxt o, Əfqanıstan hakimiyyət nümayəndələri ilə “Taliban” liderləri arasındakı danışıqları dəstəkləyirdi.

2016-cı ildə Demokratlar Partiyasından prezident yarışına qatılan Hillari Klinton öz ağıllı zarafatı ilə tərəfdarlarını güldürmüşdü: “Mənim ən qəribə cəhətim odur ki, heç zaman tərləmirəm”. O, bunu “BuzzFeed”ə açıqlamasında demişdi. “Uşaqlar, siz ilk növbədə anlamalısınız ki, mən əslində heç insani varlıq deyiləm. Mən Palo Alto qarajında lap çoxdan yığılmışam”.

2017-ci ilin sentyabrında Hillari Klinton etiraf etmişdi ki, Rusiya prezidenti Vladimir Putinlə çox pis yola gedirdi: “Bizim münasibətlərimiz çoxdan korlanıb. Putin qadınlara hörmət etmir və ona qarşı çıxan hər kəsə nifrət edir. Odur ki, mən ona ikiqat problem idim. Mən onun siyasətini tənqid edəndən sonra jurnalistlərə açıqlamasında demişdi ki, ”ən yaxşısı qadınlarla mübahisə etməməkdir". Ardınca isə məni zəif adlandırıb belə zarafat etmişdi: “Ola bilər ki, zəiflik qadınların heç də ən zəif cəhətləri deyil”.

“Müasir dünyada ABŞ-ın təkbaşına həll edə biləcəyi problemlər azdır. Amma ABŞ-ın iştirakı olmadan həll ediləcək problemlər daha azdır”. Etdiyim və gördüyüm hər şeydən sonra əmin oldum ki, Amerika əvəzedilməz ölkə olaraq qalır. Eyni zamanda əminəm ki, bizim liderliyimiz heç də dəyişilməz fakt deyil. Onu hər yeni nəsil sayəsində daha çox haqq etməliyik". Xanım Klinton bunu da İTAR TASS-a açıqlamasında deyib.

“Donald Tramp seksizmi kəşf etməyib və onun bizim siyasətimizə təsiri bu seçkilərdən çox uzaqdadır. Bu, elə bir planetə bənzəyir ki, onu hələ astronomlar kəşf etməyib, amma bilirlər ki, var. Eyni zamanda onun orbitə təsirini, eləcə də digər planetlərlə ahəngini görürlər. Seksizm hər gün bizim siyasətə təsirini göstərir - həm gizli, həm də birbaşa şəkildə”. H.Klinton bu sözləri seçkiöncəsi kampaniya zamanı deyib.

“Mənim milyonlarla ideyam var. Bu ölkə onların hamısını icra etməyi özünə icazə verə bilməz”. Klinton bu sözləri 2007-ci ilin seçkiöncəsi kampaniyası zamanı deyib.

### Onun qalmaqallı sözlərini heç kim unutmayıb

**Donald Trampın** mübahisə yaradan fikirlərindən və sitatlarından bəziləri sizin diqqətinizə çatdırır:

**1.** “Amerikada şübhəli şəxslərə müəyyən işgəncələr vermək olar və lazımdır”.

**2.** “Prezident olsam, İŞİD-i bitirəcəm”

**3.** “Meksikadan Amerikaya oğrular və quldurlar gəlir. Bu ölkə ilə sərhəddə nəhəng divar hörəcəm”.

**4.** “ABŞ-da yaşayan təxminən 11 milyon miqrant deportasiya edilməlidir”.

**5.** “Putinlə dost olacam”.

**6.** “Hər bir amerikalı evində silah saxlamaq hüququna malikdir”.

**7.** “Çini yerində oturdacam”.

**8.** “Hazırda işsizlik statistikası səhv işləyir. İşsizlərin sayı 5,1% deyil, 42%-dir”.

**9.** “Obamanın səhiyyə islahatları fəlakətdir”.

**10.** “Səddam Hüseyn və Müəmmər Qəddafi yaxşı siyasətçilər idi. Onlar devrildikdən sonra dünya daha təhlükəli yer olub”.

**11.** “ABŞ-a sığınan suriyalılar geri göndəriləcək”

12. “Müsəlmanlar ABŞ-a buraxılmamalıdır”.

**13.** “NATO pul tələsidir. ABŞ NATO-ya başqa ölkələrdən daha çox pul yatırır”.

**14.** “Abortu qeyri-qanuni etdirən qadınlara və əməliyyatı aparan həkimlərə cəza verilməlidir”.

**15.** “Keçmiş İraq diktatoru Səddam Hüseyn pis adam idi, amma Səddam Hüseynin yaxşı gördüyü bir iş vardı - terrorçuları öldürmək. Bunu çox yaxşı edirdi”...

ABŞ-ın eks-prezidenti Barak Obama qızlarını həyatının ən böyük nailiyyəti adlandırıb. Prezident bu barədə Ağ Evdə ali təhsil müəssisələrinin tələbələri ilə keçirilən görüşdə jurnalistika fakültəsinin tələbələrinin suallarını cavablandırarkən bildirib.

“Hər şeydən çox onunla qürur duyuram ki, Mişel Obamanın köməkçisi olaraq 2 möhtəşəm qız böyütmüşəm”, - deyə ABŞ prezidenti vurğulayıb. Prezidentin bu sözləri auditoriyada gülüşlə qarşılanıb.

### Bu sitatları unutmayın

Keçək dünyasını dəyişən siyasətçilərə, tanınmışlara.

**Adolf Hitler:** “Cəsədimi rusların əlinə əsla verməməlisiniz, məni Moskvada heykəl edərlər”.

**Anton Çexov** (1860-1904) Rus teatr yazıçısı: “Uzun zamandır şampan içməmişdim”.

**O.Henry** (1862-1910), amerikalı yazar: “Yandırım işıqları. Evə qaranlıqda getmək istəmirəm. ”

**Çe Gevara** - (1928-1967) Kuba inqilabının öndəri və sosialist inqilabçı: “Bura məni öldürməyə gəldiyini bilirəm. Vur məni qorxaq! Yalnız bir adam öldürmüş olacaqsan”.

**Fatih Sultan Mehmet** (II. Mehmet) (1432-1481) Osmanlı Dövlətinin, yeddinci padşahı: “Həkimlər, mənə nə üçün qıydınız?”

**Franz Cozef Haydn** (1732-1809) - Avstriyalı bəstəkar: “Bu möhtəşəm hərb məni bitirdi”.

**Corc Bernard Şou** (1856-1950) - İrlandiyalı oyun yazıçısı və tənqidçi: “Məni bir antikvar olaraq saxlamağa çalışırsan amma işim bitdi, öləcəyəm.” (Müalicəsini boynuna götürən tibb bacısına).

**Goethe** (1749-1832) - Alman oyun yazıçısı, şair, siyasətçi, elm adamı və filosof: “Bir az daha işıq! .. (Mehr Licht!)”

**Vitney Houston** (1963-2012) - Amerikalı, dünyanın ən çox mükafat alan qadın müğənnisi: “İsanı görməyə gedirəm. İsanı görmək istəyirəm”.

**Yuli Sezar** (e.ə. 100-e.ə. 44) - Roma Respublikası diktatoru və yazar: “Sən də mi Brutus?”

**Marco Polo** (1254-1324) - İtalyan səyyah: “Kimsə mənə inanmayacağı üçün gördüklərimin yarısını belə danışmadım”.

**Volfgang Amadeus Mozart** (1756-1791) - Klassik Qərb Musiqisinin ən gözəl bəstəkarı: “Ölümün dadı dilimin ucundadır. Bu dünyadan olmayan bir şey hiss edirəm. ”

**Muammar Qəddafi** (1942-2011) - Liviyanın eks lideri: “Övladlarım, mən sizin atanızam. Siz nəyin doğru, nəyin səhv olduğunu bilmirsiniz. Bu etdiyiniz haramdır. Haram nədir bilirsiniz?”

**Oskar Vilde** (1854-1900) - İrlandiyalı oyun yazıçısı, şair və roman yazıçısı: “Ya divar kağızı gedir, ya da mən”.

**Simon Bolivar** (1783-1730) - Cənubi amerikalı inqilabçı öndər: ”Lənət olsun, bu labirintdən necə çıxacağam!"

**Tomas More** (1478-1535) - İngilis yazar və dövlət xadimi: “Qalxmağıma kömək edin, enərkən onsuz ki, yalnız qalacağam” (Edam kürsüsünə çıxarkən cəllada söylədiyi son cümlə).

**Viktor Hüqo** (1802-1885): “Qara bir işıq görürəm”.

**Vito Corleone** - “The Godfather” filmində, Corleone Mafiya Ailəsinin qurucusu: “”Həyat elə gözəldir ki...”

❑ **Hazırladı: Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 99 (6988) 7 may 2018

## Ömür boyu 30 min “Biq Mak” yeyib



Amerikalı Don Qorske həyatı boyunca 30 min “Biq Mak” yeyib və bununla da dünya rekordu qırıb. Bu barədə “USA Today” nəşri xəbər verib. Türmə nəzarətçisi olaraq təqaüdə çıxan Qorske hələ martın ortasında daha 30 min ədəd Biq Mak yeyəcəyinə söz vermiş və öz vədini də yerinə yetirmişdi. 64 yaşlı kişi 1972-ci ildə ilk dəfə burger yediyi “Makdonalds” restoranında bu qidanı yeyib.

“Həmin vaxt cəmi bir ədəd ”Makdonalds" restoranı var idi. Mən də onda yenicə sürücülük vəsiqəsi qazanmışdım" - o, rekordu barədə danışanda bunları yada salıb.

Amerikalı etiraf edib ki, bu burger onun üçün xüsusi olub. Yubiley xarakterli “Biq Mak”ı yemədən öncə o, saat yarımlıq təqdimat təşkil edib. O, burada indiyədək yediyi burgerlərin sayını qeyd etdiyi dəftərçəsini də hamıya nümayiş etdirib. Bundan sonra o, evdə yemək üçün daha bir “Biq Mak” alıb.

Adətən o, həftə ərzində 14 “Biq Mak” yeyir. Onları öncədən restorandan alır, sonra isə evdə mikrodalğalı sobada qızdırır. 44 il ərzində o, cəmi 8 gün burger yeməyib. Bu günlərdən birində restoran bağlı olub. Dediyinə görə, o, mütəmadi olaraq həkim nəzarətindən keçir və normal təzyiqi, aşağı səviyyədə xolesterini var. Amma o, eyni zamanda obsesiv-kompulsiv kədərlənmədən əziyyət çəkir ki, bu da onun daim “Biq Mak” yeməsi ilə əlaqələndirilir.

## Zürafə çəkiliş zamanı rejissoru öldürdü

**47 yaşlı rejissor Karlos Karvalo Afrikada, bir film çəkilişləri zamanı zürafənin hücumuna məruz qalaraq ölüb. Bu haqda “Metro” nəşri xəbər verir. Çəkiliş qrupu üzvlərindən birinin dediyinə görə, rejissor Cerald ləqəbli zürafəni çəkəndə heyvan ona kəllə atıb. Karvalonu xəstəxanaya aparsalar da, həkimlər onun həyatını xilas edə bilməyiblər.**

Çəkilişlərin keçirildiyi parkın təmsilçiləri deyib ki, zürafəni baş verənlərə görə ittiham etmək düzgün deyil. Çünki rejissor təhlükəsizlik qaydalarını qulaqardı edib.



Karlos Karvalo vəhşi təbiətlə bağlı filmlər çəkirdi. Onu dəfələrlə beynəlxalq mükafatlara layiq görüblər.

## Qadının mədəsində göbələklər böyüyürmüş

**Çinin İu şəhərində yaşayan qadının mədəsində yaranan göbələyə görə ciddi əməliyyat keçiriblər. Bu barədə Lenta.ru saytı “Daily Mirror”a istinadən xəbər verib. 50 yaşlı qadın həkimlərə mədəsindəki ağrılara görə müraciət edib. Həkimlər endoskopun köməyi ilə onun mədəsinə baxış keçiriblər. Məlum olub ki, onun mədəsində böyüyən göbələklər var. Ən böyük nümunənin isə uzunluğu 7 santimetrə çatır. Qadını dərhal əməliyyat ediblər.**

Çin KİV-ləri yazıblar ki, baş vermiş hadisəyə qadının qurudulmuş və duzlu göbələk yeməsi səbəb olub. Gigiyenik normalara riayət olunmadan hazırlanan göbələk qadının mədəsində problem yaradıb.

2016-cı ildə Hindistanın Qurdaspur şəhərində də cərrahlar bir kişinin mədəsindən 40 bıçaq çıxarmışdılar.





## Avtobusa uşaq doldurduğu üçün həbs edildi

Çinin Nanyan şəhərindəki Xenan bölgəsində 19 yeri olan mikroavtobusa 70-dən artıq uşaq yerləşdirən sürücü həbs olunub. Lenta.ru saytının xəbərinə görə, polislər avtobusun yan şüşəsindən sürücünün yanında sıxışıb qalan uşaqları görüblər. Maşın saxlananda isə onun içindən bağçanın tərbiyəçisi və 74 uşaq çıxıb. Sükan arxasında 27 yaşlı sürücü oturubmuş və onun məktəb avtobusunu idarə etmək üçün icazəsi yox imiş. Araşdırmalar zamanı aydın olub ki, mikroavtobus uşaq bağçasına aid olsa da, onun uşaqları daşımaq üçün icazəsi olmayıb. Sürücü təhlükəli idarəetməyə görə saxlanılıb.




**QOÇ** - Başqalarının adınızdan istifadə etməsinə imkan verməyin. Çalışın ki, öz işinizə özünüz qərar verəsiniz. Səhhətinizə fikir verməyi tövsiyə edən ulduzlar varlanacağınızı da bildirir. Amma səfərə çıxmayın.

**BUĞA** - Gücünüzü potensialınızın inkişafına yönəldin. Hər bir məsələdə mövqeyinizi açıq göstərməyə çalışın. Həlledici məqamlarda tərəddüd etmək və ya qapalı olmaq ziyanlıdır.

**ƏKİZLƏR** - Öz düşüncənizin mütləq doğru olduğunu zənn etməyin. Sizin kimi insanlar üçün kənar məsləhətlər əksər hallarda effekt verir. Bunu anlayın ki, nicat tapasınız. Bu gün qazanmaq ehtimalınız yüksəkdir.

**XƏRÇƏNG** - Məsləhət görərdik ki, zehni işlərinizi azaldıb daha çox dincələsiniz. Fəaliyyətə isə ümumiyyətlə ara verin. Günün ikinci yarısını ailə-sevgi münasibətlərinə həsr edin.

**ŞİR** - Maraqlı görüşləriniz gözlənilir. Ola bilsin ki, həsrətində olduğunuz şəxslərlə rastlaşasınız. Saat 14-17 arası yeni işlərlə bağlı səmərəli sövdələşmələriniz də mümkündür.

**QIZ** - Büdcənizdə artım etmək üçün imkan qazana bilərsiniz. Bu səbəbdən də alacağınız əmanətləri əldə etmək üçün ciddi addımlar atmalısınsz. Bu gün “çağrılmamış qonaq” rolunda çıxış etməyin.

**TƏRƏZİ** - Yaxşı bir gün yaşayacaqsınız. İlahi qaydaları pozmadığınız təqdirdə bütün proseslərdən qazancla çıxacaqsınız. Bir qədər fəlsəfə və psixologiyaya vaqif olun ki, rəğbət qazanasınız.

**ƏQRƏB** - Göy qübbəsi süstlük içində olduğunuzu göstərir. Amma ümidsizləşməməli, həyata daha nikbin nəzərlərlə baxmalısınız. Kollektiv şəkildə mənəvi istirahət etmək istəyirsinizsə, tələsin.

**OXATAN** - Əgər səhhətiniz qaydasındadırsa, başqa məsələlərdə nigarançılıq çəkməyəcəksiniz. Nahar ərəfəsində aldığınız dəvətlərdən imtina etməyə çalışın. Qiymətli əşyalarınızı bərk-bərk qoruyun.

**OĞLAQ** - Maddi rifahınız normal olsa da, münasibətlər zəminində müəyyən sıxıntılarla üzləşə bilərsiniz. Bu isə son vaxtlar güzəştə getməməyinizdən doğur. Nahardan sonra mənəvi istirahətə yer verin.

**SUTÖKƏN** - Adətən ilin bu ərəfəsində Ay sizin bürcdə olanda mütləq səhhətlə bağlı problemlə üzləşirsiniz. Bunu nəzərə alıb qeyri-ənənəvi işlərdən uzaq olun. Yalnız səfərə çıxmaq uğurludur.

**BALIQLAR** - Gələcək perspektivlərlə bağlı apardığınız bütün sövdələşmələriniz uğurlu olacaq. Odur ki, istənilən görüşdən imtina etməməlisiniz. Bu təqvim alqı-satqı üçün də düşərli ola bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Maşını keyfiyyətsiz çıxdı, avtosalonu dağıtdı



**Pekində narazı müştəri aqressiv hərəkət edib. Aldığı maşının keyfiyyətindən narazı qalan kişi avtosalona hücum edib. Elə narazı qaldığı maşını salonun içinə sürən, onun bütün şüşələrini dağıdan, içəridəki əşyalara zərər verən kişinin ürəyi bununla da soyumayıb. O deyib ki, daha öncə maşının keyfiyyətindən razı qalmadığı üçün avtosalonu məhkəməyə verib.**

Amma avtosalonun işçiləri onun həyat yoldaşını təhdid etdiyi üçün şikayətini geri götürüb. Bu hadisə ona pis təsir etdiyi üçün çinli kişi intiqamını almağa çalışıb. Baş vermiş hadisə nəticəsində heç kimə xətər dəyməyib. Polis baş vermiş insidentin araşdırılmasına başlayıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dəqiqə” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.